**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “İŞĞALDAN AZAD OLUNMUŞ İNZİBATİ ƏRAZİLƏRDƏ BİZNES İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İNKİŞAFI”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Balayeva Nənəxanım Natiq**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" _______________ 2022-ci il**

# "İŞĞALDAN AZAD OLUNMUŞ İNZİBATİ ƏRAZİLƏRDƏ BİZNES İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İNKİŞAFI"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060409 Biznesin idarə edilməsi

**İxtisaslaşma:** Biznesin təşkili və idarə edilməsi

**Qrup:** 116

**Magistrant:**
**Balayeva Nənəxanım Natiq qızı**
**_______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Əliyev Məhəmməd Ələkbər oğlu**
**_____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**__________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**

**BAKI – 2022**

**Elm andı**

Mən, Balayeva Nənəxanım Natiq qızı and içirəm ki, “İşğaldan azad olunmuş inzibati ərazilərdə biznes infrastrukturunun formalaşması və inkişafı” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**İŞĞALDAN AZAD OLUNMUŞ İNZİBATİ ƏRAZİLƏRDƏ BİZNES İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İNKİŞAFI**


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Ermənistan işğal olunmuş ərazilərimizə xeyli ziyan vurmuşdur. Belə ki, Heydər Əliyevin 1996-cı il 12 iyul tarixli 471 nömrəli fərmanına uyğun olaraq, Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyası və onun işçi orqanı olan Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılmışdır. 2010-cu ildə isə məcburi köçkünlərin Qarabağa "Böyük Qayıdış" proqramını hazırlamışdır.**

**Tədqiqatın məqsədi: Tədqiqat işinin məqsədi, işğaldan azad olunmuş inzibati ərazilərdə biznes infrastrukturunun formalaşması və inkişaf imkanlarını tədqiq etmək, analiz və araşdırmalar aparmaqla yeni fikir və təkliflər hazırlamaqdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat mövzusunun məqsədinə uyğun olaraq tədqiqat iki hissədən ibarət olması nəzərdə tutulub: nəzəri tədqiqat və statistik tədqiqat. Araşdırmanın aparılması üçün sistemləşdirmə, qruplaşdırma, nümunələrin tədqiqi metodu, anket-sorğu metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazası reabilitasiya ilə bağlı əvvəlki illərdə aparılmış yerli və xarici digər tədqiqatlar, yazılmış kitablar, elmi məqalələr, rəsmi dövlət qurumlarının və beynəlxalq təşkilatların illik və digər hesabatları, məlumatları olmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: 30 ildən sonra ərazilərin işğaldan azad edilməsi, tədqiqat obyekti ilə bağlı kifayət qədər məlumatların olmaması və hazırkı şəraitdə ərazilərə getmə imkanının çətinliyi tədqiqat imkanlarını məhdudlaşdırır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Ərazilərin bərpası çətin proses olduğundan və onların imkanları ilə bağlı kifayət dərəcədə məlumatlar olmadığı üçün layihədə aparılan tədqiqatlar yardımçı olmaqla bərabər, verilən təklif və fikirlərin reallaşdırılması da müsbət nəticələr verə bilər.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən iqtisadi siyasətin əsas istiqamətlərinin müəyyən edilməsində, yeni potensial sahələrin inkişaf etdirilməsində, tələbata uyğun biznes infrastrukturlarının formalaşdırılmasında istifadə oluna bilər.**



***Açar sözlər: Biznes, infrastruktur, reabilitasiya***

**FORMATION AND DEVELOPMENT OF BUSINESS IN THE LIBERATED ADMINISTRATIVE TERRITORIAL UNITS**


## SUMMARY

**The relevance of the research: The territories occupied by the Armenia suffered a lot. As well as the State Commission for Reconstruction and executive body, an agency was established on Rehabilitation and Reconstruction of Territories of the Republic of Azerbaijan in accordance with Decree No. 471 of Heydar Aliyev dated July 12, 1996. In 2010, the Azerbaijan developed the IDP program called 'The Great Return to Karabakh'.**

**The purpose of the research: The purpose of research is to explore development possibilities and business infrastructure in territories, to create ideas analyzing about it.**

**Research methods used: According to the purpose of research, research will consist of two parts: theoretical and statistical research. Systematization, grouping, sample research method, questionnaire methods were used to explore.**

**Research database: The database was based on local, foreign research, written books, reports and information of government agencies and organizations.**

**The limits of the research: The liberation of the territories after 30 years, lack of information about study and difficulty of accessing to areas in situation restrict research opportunities.**

**Scientific novelty and practical results of the research: Since restoration and revitalization of areas is difficult and no information about areas and capabilities, the research conducted in project is helpful and implementation of proposals, ideas bring good results.**

**Areas results can be used: It can be used in the Ministry of Economic Development of the Republic of Azerbaijan to harmonize economic policy, to ensure the development of potential areas, to form businesses for purposes.**



**Key words: Business, infrastructure, rehabilitation.**

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **BMT** | Birləşmiş Millətlər təşkilatı |
| **KOB** | Kiçik və Orta Biznes |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **Məs** | Məsələn |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

# MÜNDƏRİCAT

**GİRİŞ**........................................................................................................ 8

**I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ İNZİBATİ RAYONLARIN ƏRAZİ VAHİDLƏRİNİN XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ** ........................................ 12

1.1.İşğaldan azad olunmuş ərazilərin ümumi xarakteristikası .................................... 12

1.2.İşğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə daxil edilməsi məsələləri .. 17

**II FƏSİL. İŞĞALDAN SONRAKI DÖVRDƏ AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ VƏ İNVESTİSİYA İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ** 22

2.1. İşğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun təşkili zamanı regionun iqtisadi xüsusiyyətlərinin nəzərə alınması və əlverişli sahələrin inkişaf etdirilməsi ... 22

2.2. KOBİA-nın azad olunmuş inzibati rayonların inkişafında rolu və ərazilərin investisiya imkanlarının qiymətləndirilməsi ............................................................... 36

**III FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BİZNES İNFRASTRUKTURUNUN FORMALAŞDIRILMASI VƏ İQTİSADİ ƏHƏMİYYƏTİNİN TƏHLİLİ** ........................................................................... 45

3.1. İşğaldan azad olunmuş ərazilərə xarici şirkətlərin marağı və onların təcrübəsi ilə biznes infrastrukturunun formalaşması .......................................................................... 45

3.2. İşğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun formalaşmasına dövlət dəstəyi.................................................................................................................. 57

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** .................................................................................... 67

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**................................................ 70

**ƏLAVƏLƏR** .......................................................................................................... 74

Cədvəllərin siyahısı ...................................................................................................... 76

Qrafiklərin siyahısı ....................................................................................................... 76

# GİRİŞ

**Mövzunun aktuallığı:** Tarixə nəzər salsaq, ümumi olaraq deyə bilərik ki, Ermənistan Respublikasının silahlı birləşmələrinin qanunsuz olaraq işğal etdiyi torpaqlara külli miqdarda zərər vurulmasını, Sözügedən bölgədə dinc sakinlərin mülkiyyətinin talan edilməsinin kütləvi hal aldığını və həyati təhlükə səbəbi ilə ata-baba torpaqlarını tərk etməyə məcbur olan qaçqınlara gələcəkdə yurdlarına qayıtması üçün normal şəraitin yaradılması problemi daimi olaraq Azərbaycan hökumətinin və müxtəlif beyin mərkəzlərinin diqqətində olmuşdur. Bu problemin labüdlüyünü nəzərə alaraq Azərbaycan Respublikası Prezidenti Ulu öndər Heydər Əliyevin 1996-cı il 12 iyul tarixli 471 nömrəli fərmanına uyğun olaraq, Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyası və onun işçi orqanı olan Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılmışdır. 2010-cu ildə Azərbaycan hökuməti məcburi köçkünlərin Qarabağa "Böyük Qayıdış" proqramını hazırlamışdır. AMEA İqtisadiyyat İnstitutda regionların sosial-iqtisadi inkişafı, iqtisadi potensialın və həyat keyfiyyətinin qiymətləndirilməsi, sahibkarlığın inkişafı və s. sahəsində aparılan elmi tədqirat işlərinin nəticələri işğaldan azad olunmuş ərazilərin sahəvi və kompleks bərpa proqramlarının tərtibi üçün baza rolunu oynamaq imkanına malikdir. AMEA İqtisadiyyat İnstitutunun direktoru prof. Nazim Müzəffərlinin (İmanovun) və prof. Eldar İsmayılovla birlikdə 2010-cu ildən başlayaraq post- konflikt ərazilərin bərpası sahəsində apardıqları və gələcək reabilitasiya işlərinin konturlarını cızmağa imkan verən tədqiqat işləri əsasında "Azərbaycanın post- konflikt ərazilərinin bərpası Konseptual əsaslar" kitabı nəşr olunmuşdur. 2011-ci ildə bu kitabın Azərbaycandan başqa bir neçə xarici ölkədə, o cümlədən Böyük Britaniya Parlamentinin Lordlar Palatasında, C. Hopkins Universiteti nəzdində fəaliyyət göstərən Mərkəzi Asiya və Qafqaz İnstitutunda, Avropa Parlamentində, və digər mərkəzlərdə uğurlu müzakirələri keçirilmişdir. Qeyd olunan zəngin nəticələrdən istifadə etməklə bərpa proqramlarının hazırlanması məqsədi ilə

Azərbaycan hökumətinin həyata keçirəcəyi sistemli fəaliyyətə töhfə vermək üçün AMEA-nın İqtisadiyyat İnstitutu Elmi Şurasının 2020 ci il oktyabrın 21-də keçirilmiş iclasında İnstitutun nəzdində "Post-konflikt Ərazilərin Bərpası" Elmi Mərkəzi yaradılmışdır. Həmçinin, işğaldan azad edilmiş regionlarda dayanıqlı məskunlaşma prosesinin icrası mərhələsində modern və komforlu həyatın təmin edilməsi, bütün sahələrdə abadlıq işlərinin aparılması, eləcə də təhlükəsiz yaşamın, səmərəli fəaliyyət sahələrinin yaradılması və rifahın davamlı yaxşılaşdırılması məqsədilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılmışdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Bu vəzifənin uğurlu həlli, ilkin olaraq, Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəyə dəyən iqtisadi ziyanın dəyər fadəsinin müəyyən edilməsini, işğal altında olan bölgələrimiz tərəfindən itirilmiş iqtisadi potensialın dəqiqliklə hesablanması, sözügedən torpaqların cari iqtisadi potensialının qiymətləndirilməsini, eləcə də potensialın səmərəli reallaşdırılması ilə bağlı olaraq perspektivlərin müəyyən edilməsini və zəruri iqtisadi mexanizmlərin işlənib hazırlanmasını, azad torpaqlarda inkişafımızın prioritet istiqamətlərinin müəyyənləşdirilməsini vacib edir.

İkinci Qarabağ müharibəsində əldə edilən qələbə və torpaqlarımızın işğaldan azad edilməsi də iqtisadi bloka aid edilən dövlət qurumları qarşısında yeni vəzifələr gətirməklə qaymayaraq, eyni zamanda respublikada sahibkarlığın inkişafı üçün yeni çağ yaratmış oldu. Bununla bağlı bir çox fikir və tədqiqat işləri mövcuddur ki, ilkin mərhələdə planlı şəkildə ərazilərin iqtisadi dövvriyyə cəlb edilməsi üçün bir sıra addımlar atılmaqdadır.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqat işinin məqsədi, işğaldan azad olunmuş inzibati ərazilərdə biznes infrastrukturunun formalaşması və inkişaf imkanlarını tədqiq etmək, bununla bağlı analiz və araşdırmalar aparmaqla yeni fikir və təkliflər hazırlamaqdır. Bununla əlaqədər olaraq yerinə yetirilməli olan vəzifələr aşağıdakılardır:

- İşğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə daxil edilməsi məsələlərinin təhlili
- Azad edilən bölgələrdə biznes infrastrukturunun formalaşmasında dünya təcrübəsinin öyrənilməsi
- işğaldan azad edilən ərazilərin iqtisadi xüsusiyyətlərinin nəzərə alınaraq perspektivli sahələrin inkişaf istiqamətlərinin tədqiq edilməsi
- Ərazilərin investisiya imkanlarının qiymətləndirilməsi

**Tədqiqatın obyekti və predmeti:** Araşdırma işinin obyekti Azərbaycanın Ermənistan işğalıdan azad etdiyi Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonu, predmeti isə bu rayonlarda biznes infrastrukturu və onun formalaşdırılması xüsusiyyətləridir.

**Tədqiqat metodları:** Tədqiqat zamanı müqayisəli təhlil, anket-sorğu, nümunələrin tətqiqi, qruplaşdırma, ümumiləşdirmə və s. metodlardan istifadə olunub.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın informasiya bazası reabilitasiya ilə bağlı əvvəlki illərdə aparılmış yerli və xarici digər tədqiqatlar, yazılmış kitablar, elmi nəşrlər, elmi məqalələr, rəsmi dövlət qurumlarının və beynəlxalq təşkilatların illik və digər hesabatları, Azərbaycan Respublikasının qanunvericilik aktları, normativ sənədləri, olmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** 30 il kimi uzun bir müddət sonra ərazilərin işğaldan azad edilməsi, tədqiqat obyekti ilə bağlı kifayət qədər məlumatların olmaması və hazırkı şəraitdə ərazilərə getmə imkanının çətinliyi tədqiqat imkanlarını məhdudlaşdırır.

**Tədqiqatın elmi yeniliyi:** Layihənin nəticəsi kimi deyə bilərik ki, aparılan tədqiqatlar, fikirlər və tövsiyələr gələcək üçün əhəmiyyətlidir. Sözsüz ki, həmin ərazilərin bərpası və canlanması çətin bir prosesdir və hazırkı şəraitdə həmin ərazilərlə, onların imkanları ilə bağlı kifayət dərəcədə məlumatlar olmadığı üçün bu layihədə aparılan tədqiqatlar yardımçı olmaqla bərabər,bu istiqamətdə verilən təklif və fikirlərin reallaşdırılması da müsbət nəticələr verə bilər.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Dissertasiya işinin müəyyən müddəalarından Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən iqtisadi siyasətin əsas istiqamətlərinin müəyyən edilməsində, yeni potensial sahələrin inkişaf etdirilməsində, təlabata uyğun biznes infrastrukturlarının və s. hədəflərin formalaşdırılmasında istifadə oluna bilər.

# I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ İNZİBATİ RAYONLARIN ƏRAZİ VAHİDLƏRİNİN XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

## 1.1. İşğaldan azad olunmuş ərazilərin ümumi xarakteristikası

Azərbaycanın işğaldan zərər çəkmiş əraziləri, Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, Ermənistanla bütün sərhəd boyu uzanır. Buraya, 45-i şəhər statusuna malik olmaqla, 1 765 yaşayış məntəqəsi daxildir. Qarabağın məskunlaşma sahəsində 1 268 yaşayış məntəqəsi vardır (bunların 34-ü şəhər statusuna malikdir). Qarabağın işğal altındakı ərazilərində 764 yaşayış məntəqəsi var idi,indi onların mütləq əksəriyyəti, demək olar ki, tam dağıdılmışdır. Beləliklə də, bu araşdırmanın mövzusu Azərbaycanın Dağlıq Qarabağa bitişik yeddi bölgəsi – Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarıdır. Onların ümumi sahəsi 8 874 km2 , əhalisi 615 min nəfərdir (Müzəffərli N, İsmayılov E. 2010).

Ölkənin iqtisadi rayonlara bölünməsi baxımından məlumdur ki, idarəetmənin səmərəliliyini yüksəltmək nöqteyi-nəzərindən inzibati ərazi bölgüsünün optimal variantının təşkili böyük əhəmiyyət daşıyır. Azərbaycan ərazisinin 10 iqtisadi rayona bölünməsi AR-nın Prezidentinin sərəncamı əsasında “2004-2008-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramı”ının icrası zamanı təsbit olunmuşdur.

07 iyul 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərman imzalamışdır. Bu fərmana uyğun olaraq respublikada rayonların yenidən iqtisadi bölgüsü müəyyənləşdirilişdir:

I. Bakı iqtisadi rayonu (Bakı şəhəri);

II. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

III. Abşeron-Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

IV. Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

V. Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

VI. Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

VII. Qazax-Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

VIII.Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

IX. Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

X. Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

XI. Mil-Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

XII. Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

XIII. Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

XIV. Şirvan-Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları) (Əliyev.M, http://diaspor.info/siyaset/14721-musteqil-iqtisadiyyatimiza-qalan-miras-ve-yeni-realliqlar.html, 2021).

Tədqiqat mövzusu olan ərazi bu iqtisadi rayonların ikisində təmsil olunur. Yuxarı Qarabağ iqtisadi regionuna 7 inzibati rayon – Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Füzuli və Cəbrayıl rayonları, habelə Xankəndi şəhəri daxildir.

Cəbrayıl, Ağdam və Füzuli rayonları keçmiş DQMV-nin inzibati sərhədlərindən kənarda yerləşir. Kəlbəcər-Laçın iqtisadi regionuna 4 inzibati rayon – Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxildir.

İşğaldan azad edilmiş rayonlarımızın, işğaldan əvvəlki vəziyyətlərinə nəzər salaq:

Ağdam rayonu- Qarabağ silsiləsinin şimal-şərq ətəklərini və Kür-Araz ovalığının qərb hissəsini əhatə edir. Əsasən düzən relyeflə sciyyələndirilən Ağdam qismən dağlıq relyefə də malikdir. İqtisadiyyatı potensialı baxımından inkişaf etmiş aqrar rayonu olmuşdur. Bu sahəyə əsasən üzümçülük, pambıqçılıq, heyvandarlıq, taxılçılıq, eləcə də baramaçılıq daxildir. Sənaye sektorunda ağır, yüngül və qida-yeyinti sənayesi müəssisələri pay çoxluğu təşkil edir. İşğala yaxın dövrdə daş karxanaları, ət kombinatı, konserv və şərab zavodları, yağ-pendir, və bir sıra başqa istehsal təyinatlı müəssisələr fəaliyyət göstərirdi.

Füzuli rayonu- əsas etibarı ilə, Araz çayına uzanan alçaq maili düzənlik, qərb tərəfdə isə alçaq dağlıq relyefə malikdir. Bakı-Şirvan-Naxçıvan magistralının üstündə yerləşir. İqtisadiyyatının əsas sahəsi, yetərincə yüksək səviyyəli suvarma sisteminə malik olan kənd təsərrüfatı olmuşdur. kənd təsərrüfatının başlıca sahələrinə taxılçılıq, heyvandarlıq, quşçuluq, üzümçülük, həmçinin baramaçılıq daxil edilir. İşğaldan əvvəlki yaxın zaman periodunda qaramal-kökəltmə və qoyunçuluq kompleksləri fəaliyyət göstərirdi. Sənayedə aqrar sənaye sahəsi önəmli aspektdən çıxış edir belə ki, toxuculuq fabriki, yağ-pendir məmulatları, pambıqtəmizləmə, dəmir-beton məhsulları zavodları, bir neçə üzüm emalı zavodu, , daş karxanaları və digər zavod və fabriklər fəaliyyət göstərmişdir.

Cəbrayıl rayonu- əsasən, maili düzənlik, şimalda alçaq dağlıqrelyef xüsusiyyətlərinə malik olmaqla, Bakı-Şirvan-Naxçıvan magistral yolunun üzərində yerləşir ki, təsərrüfat sahələrinin əsasında – kənd təsərrüfatı (üzümçülük, tütünçülük, heyvandarlıq və taxılçılıq) dayanır. Sənaye sektoru xalçaçılıq yönümlü inkişaf etmişdir. Bundan əlavə olaraq, emal sənayesində üzüm emalı zavodu, çörək istehsalı təyinatlı zavodlər fəaliyyət göstərirdi.

Zəngilan rayonu –Mürəkkəb relyefə malik bu razon Kiçil Qafqazın Arazboyu ərazisində yerləşir. Rayon coğrafi və iqtisadi əlverişli mövqedə yerləşirdi ki, bunun da səbəbi Bakı-Şirvan-Naxçıvan magistralının və Bakı-İrəvan dəmir yolu (MincivanQafan qolu ilə) və İmişli-Laçın magistral şose yolunun üzərində yerləşməsi idi.

İqtisadiyyatının aparıcı sektoru – kənd təsərrüfatı olub ki, burada ənənəvi olaraq taxılçılıq, üzümçülük eləcə də tütünçülük inkişaf etmişdir. Rayon iqtisadi potensialının bir hissəsində də turizm üçün əlverişli olması dayanır.

Qubadlı rayonu - Bakı şəhərindən 401 km aralıda, ölkənin cənub-qərb zonasında, Qarabağ silsiləsinin cənub-qərb ətəklərində yerləşənrən dağətəyi və dağlıq relyefə malikdir. İqtisadiyyatında aparıcı sektor– aqrar sektor olmuşdur. Müharibədən əvvəlki illərdə sənaye sürətlə inkişaf yolunu almışdır ki, rayon ərazisində yağ-süd və asfalt zavodları, 2 ilkin üzüm emalı zavodu, balıqyetişdirmə vətəgəsi, daş karxanası, inkubatorquşçuluq fabriki, mərmər sexi fəaliyyət göstərmiş, "Neftqazavtomat" təcrübə zavodunun Qubadlı filialının tikintisi tamamlanmaq üzrə olmuşdur.

Laçın rayonu- Dağlıq relyefə sahib olan Laçın rayonu ölkənin cənub qərbində yerləşən Bakıdan 401 km məsafədə iqtisadi əhəmiyyəti olan bir ərazidir. Başlıca iqtisadiyyat sahələri ənənəvi olaraq heyvandarlıq və əkinçilikdir ki, əkinçilik istiqamətində taxılşılıq və maldarlıq ilə bağlı olan yem istehsalı əsas sahələr hesab edilir. Aqrar sahədə xammal emalı üzrə müəssisələr arasında yağ-pendir və çörək kombinatları, süd zavodu mühüm mövqedə dayanır. Sənaye və infrastruktur, 1970-ci illərdən inkişaf etdirilməyə başlanılıb. İnfrastrukturun təşkili üçün əhəmiyyətli hesab olunan 23 inşaat materialları müəsisəsi fəaliyyətdə idi ki,bunlara afsalt-beton zavodu, daş karxanaları, mərmər emalı müəssisələrini nümunə göstərmək olar. Bunlardan əlavə toxuculuq sexləri, alüminium və maşınqayırma zavodlarının filialları, məişət xidməti kombinatı və s. 16 sənaye müəssisəsi var idi.

Kəlbəcər rayonu –Respublikanın qərbində Böyük Qafqaz dağlarında Tərtər çay vadisində yerləşən Kəlbəcər rayonu ərazisinə görə ölkənin ən böyük rayonudur ki, buradan rayonun iqtisadi və sosial aspektdən mühüm rolu aydın olur. Belə ki, zəngin bitki və heyvanat aləminə sahib olduğundan bu rayon təbiət muzeyi adlanır (Müzəffərli N, İsmayılov E. 2010).

Rayonlar üzrə fəaliyyət sahələrinin ümumiləşmiş şəkildə aşağıdakı cədvəldə qruplaşdıra bilərik.

**Cədvəl 1: Rayonlar üzrə sektorların bölgüsü**

| | Sənaye | Aqrar | Xidmət |
|---|---|---|---|
| **Ağdam** | Daş karxanaları, ət kombinatı, konserv və şərab zavodları, yağ-pendir | üzümçülük, pambıqçılıq, heyvandarlıq, taxılçılıq, baramaçılıq | Mədəni turizm |
| **Füzuli** | toxuculuq fabriki, yağ- pendir məmulatları, pambıqtəmizləmə, dəmir-beton məhsulları | Taxılçılıq, heyvandarlıq, quşçuluq, üzümçülük, baramaçılıq | |
| **Cəbrayıl** | üzüm emalı zavodu, çörək istehsalı təyinatlızavodlər | üzümçülük, tütünçülük, heyvandarlıq taxılçılıq | |
| **Zəngilan** | Mədən sənayesi | taxılçılıq, üzümçülük tütünçülük | Rekreasiyaturizmi, tarixi turizm |
| **Qubadlı** | yağ-süd və asfalt zavodları, üzüm emalı zavodu, balıqyetişdirmə vətəgəsi, daş karxanası, inkubatorquşçuluq fabriki, mərmər sexi | əkinçilik, heyvandarlıq, baramaçılıq, xalçaçılıq üzümçülük | İctimai-iaşə |
| **Laçın** | | taxılçılıq, yağ-pendir və çörək kombinatları, süd zavodu afsalt-beton zavodu, daş karxanaları, mərmər emalı müəssisəsi | Tarixi turizm eko turizm |
| **Kəlbəcər** | Mədən sənayesi | | Tarixi turizm Müalicəvi turizm |

**Mənbə**: Müzəffərli N, İsmayılov E. 2010 mənbələrinə əsasən müəllif tərəfindən tərtib edilib.

İşğaldan azad olunmuş ərazilərimizin, işğaldan əvvəlki dövrdə ixtisaslaşdığı sahələr, və iqtisadi vəziyyəti haqqında olan yuxarıda sadaladığımız ümumi məlumatlar ,bizə həmin ərazilərin iqtisadi dövriyyəyə hazır vəziyyətə gətirilməsi mərhələlərində yardımçı rolu oynamaqla bərabər ,strateji plan hazırlanmasına da öz töhfəsini verəcəkdir.

## 1.2. İşğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə daxil edilməsi məsələləri

Şanlı qələbəmizdən sonra, Qarabağ regionun ölkədəki inkişaf trendinə reinteqrasiyası prezidentin tapşırığına uyğun olaraq Azərbaycan iqtisadi siyasəti strateji idarəetmə çərçivəsi əsasında həyata keçirilir. Reinteqrasiya strategiyası vaxt ardıcıllığı və regionun iqtisadi, sosial və mədəni xarakteristikası nəzərə alınmaqla həyata keçiriləcəkdir.

Ərazidə əsas infrastruktur sistemlərinin, yəni, nəqliyyat, elektrik, su, qaz, meliorasiya –irriqasiya, sistemlərinin yenidənqurulması və inkişaf etdirilməsi qarşıda dayanan əsas məsələdir. Buna paralel olaraq ərazidə sosial infrastrukturun bərpası da zərurəti var ki, burada əsas olaraq təhsil və səhiyyənin eləcə də digər xidmət sektorlarının yaradılmasından söhbət gedir. Digər prioritet məsələ isə idarəetmə orqanlarının fəaliyyətinin tam təmin olunması, məşğulluq məsələləri və iqtisadi rəqabətə davamlı sahələrin yaradılmasıdır (https://vergiler.az/news/economy/10954.html, 2020).

Azərbaycanın bu sahədə uğurlu təcrübəsi kimi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində qısa zamanda yerdiənqurma və bərpa işlərinin başa çatdırılması, tarixi torpaqlarımıza Böyük Qayıdışın başlanğıcı hesab oluna bilər. Görülən işlərin hər biri biznes infrastrukturunun inkişafına böyük imkanlar yaradır (https://news.milli.az/economy/895026.html, 2020).

Böyük Qayıdış prosesində diqqət edilən başlıca məsələ infrastruktur layihələrinin icrasıdır ki, əvvəla qeyd edilməlidir ki, işğal zamanı təkcə Laçın rayonunda 5 su elektrik stansiyası dağıdılıb Ziyan vurulan bütün obyektlərin bərpasının qısa müddət ərzində başa çatdırılması planlaşdırılır. Regionda enerji potensialının böyük potesialı olduğundan azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyi gözlənilir.

Zəngilan rayonunda yaradılan "Ağıllı kənd" layihəsi 5 komponenti - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələrini özündə birləşdirir ki, bu da Azərbaycanın təşəbbüsləri həyata keçirən ölkə olduğunu sübut edir.

Qaytarılan ərazilərin kənd təsərrüfı potensialı ölkədəki aqrar iqtisadiyyatın inkişafına dəstək olacaq (http://www.shirvan-ih.gov.az/news/1945.html ,2021).

Qarabağ və Şərqi Zəngəzurdakı iqtisadi potensialının qiymətləndirilməsi istiqamətində AMEA-nın tərkibindəki İqtisadiyyat İnstitutu və "Boston Consulting Group" şirkəti ilə ortaq tədqiqat işləri həyata keçirilir ki, qarşıya qoyula əsas məsələlərdən biri də müqayisəli üstünlük sahələrinin müəyyənləşdirilməsidir. Tədqiqatlar əsasında hazırlanan strateji təhlil sənədində şirkət tərəfindən hazırlanan tarazlıq modeli əsasında proqnozlaşdırılması məsələləri öz əksini tapır.

İlkin inventarlaşmanın bütün informasiyaları Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə daxil olunmuşdur ki, 14618 daşınmaz əmlakın (11685 ədəd tikili və 2933 ədəd infrastruktur obyekti) çöl inventarlaşdırma prosesləri tamamlanmışdır. Hazırda bu sistemə 20 dövlət qurum və təşkilatının qoşulması təmin edilmişdir. Biznes fəaliyyətinin reallaşdırılması ilə bağlı 791 müraciət daxil olub ki, bu da ərazidə biznes təşkilinə maraqların olduğunu göstərir.

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsinin açıqlamasına əsasən, sözügedən ərazilərdə 14347 hektar sahədə şumlama işləri həyata keçirilmişdir ki, şumlanan torpaqlarda taxıl əkini planlaşdırılır. Kəlbəcər və Laçın rayonundakı yaylaqlara 3568 arı ailəsi və cəmi 69 arıçı köçürülmüşdür. Onu da vurğulamaq yerinə düşər ki, qazanılan qələbədən bu günku günə qədər olan dövr ərzində Füzuli ərazisində 288.8 hektar torpaqda şəkər çuğunduru əkilib. Belə ki hər hektardan şəkərlilik faizi 15-16 faiz göstərici ilə 55-60 ton məhsul toplanılıb və tədarük edilən məhsulun miqdarı 1800 tona yaxındır.

Otelçilik və turizm fəaliyyətlərinin təşkili istiqaətində 11 investisiya layihəsinin ilkin dəyərləndirilməsi aparılıb ki, bu barədə Dövlət Turizm Agentliyinin nümayəndəsi icmaiyyəti məlumatlandırıb. Agentliyin nümayəndəsinin məlumatlarına əsasən strateji əhəmiyyətə malik olan Xocavənd rayonu mərkəzi olan Hadrut qəsəbəsinin turizm mövqeyindən qiymətləndirlməsi ilə bağlı hesabat hazırlanmışdır( https://azertag.az/xeber/Isgaldan_azad_edilmis_erazilerin_iqtisadi_potensialinin_qiymetlendirilmesi

_istiqametinde_muvafiq_isler_aparilir-1891585 , 2021).

Paralel olaraq həyata keçirilən bu yenidənqurma işlərinin hamısı onu göstərir ki, azad olunan regionda "tikinti bumu” gözlənilir. Qeyri-neft sektorunun inkişafı ilə bağlı verilən proqnozlar ordumuzun qələbəsilə yenidən işlənəcəkdir ki, bu da inkişaf potensialının artması ilə əlaqəlidir tədqiqatların ilkin nəticələrinə əsasən növbəti illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məhsulun ümumi buraxılışı 2 milyard manatdan artıq ola bilər.

Qaytarılan tarixi torpaqlarımızda dirçəliş məsələsi bir çoxpilləli prosesdir ki, ilk növbədə kooperasiya əlaqələrinin qurulması tələb olunur ki, bu həm region daxilində onu əmələ gətirən rayonlar arasında, daha sonra bu rayonlardakı müəssisələr arasında kommunikasiya əlaqələrinin güclənməsində əhəmiyyətli faktordur. Buna paralel olaraq, bir neçə aşağı tərtibli nəticələr gözlənilir. Burada ilk olaraq repatriantların iqtisadi cəhətdən təminatı və maliyyələşdirilməsi məsələləri dayanır. Beləliklə, zəfər qazanılan torpaqların iqtisadi dövriyyəyə daxil edilməsi zamanı əsas aşağıdakı məsələlərin diqqət mərkəzində olması vacibdir:

İlkin olaraq qeyd edilməlidir ki, dirçəlmə prosesinin əsasında davamlı iqtisadi inkişafın təməlinin qoyulması dayanır ki, bu da görülən işlərin uzun müddətli olacağını yəqin edir. İkinci yerdə isə resurslarla təminat məsələsi dayanır ki, burada təkcə maddi resurs və ya maliyyə vəsaitləri yox, insan resurslarının cəlb edilməsi və kadr potensialının yetişdirilməsi məsələsində söhbət gedir. Həmçinin dövlətin maliyyə resurslarından əlavə özəl investisiyaların cəlb edilməsi, xüsusilə torpaqlarından köçürülən əhali arasından çıxan iş adamlarının bölgədə sahibkarlıq fəaliyyəti ilə məşğul olması yönündə stimullaşdırmaq, yerli əhalinin məşğulluq məsələlərinin optimal variantı kimi bisnes və ixtisas kurslarınını təşkili lazım gələcəkdir. Regionun dirçəlişi üzrə layihələr, dayanıqlı iqtisadiyyat üçün yeni inkişaf ocaqlarının təməlinin qoyulmasına köklənməlidir. Son illərdə reallaşdırılan hökumət proqramları, Şərqi Zəngəzur və Qarabağ ərazisinin resurs potensialının iqtisadi dövriyyəsinə daxil olunması ilə öz məntiqi ardıcıllığını tamamlamış hala gələcəkdir. Milli iqtisadiyyatda

daha bir əhəmiyyətli irəliləmə qeydə alınması gözlənilir ki, bu da iqtisadiyyatın diversifikasıyası məsələsidir. Beləki iqtisadiyyatın neftdən asılılığının gələcək dövrlərdə xeyli azalması gözlənilir. Konfliktsonrası reabilitasiya ərzində, makroiqtisadi tənzimlənmənin bir sıra mütərəqqi modelini sınaqdan keçirmək də mümkün olacaq. Yerli və xarici özəl şirkətləri cəlb etmək məqsədi stimullaşdırma metodlarına xüsusi diqqət də dövlətin iqtisadi siyasətinin bir parçasıdır. Biznes fəaliyyəti həyata keçirən əhalinin peşəkarlıq səviyyəsini yüksəltmək məqsədi ilə icra edilən layihələr, vergi güzəşləri və s iqtisadi güzəştlər çox vacibdir. Dövlətin maliyyə resurslarının dövriyyəyə cəlb olunmasında şəffaflığın təmin edilməsi üzrə bir sıra metodların həm ayrı-ayrılıqda, həm də kombinə edilmiş şəkildə tətbiqi prinsipial əhəmiyyət daşıyır. İqtisadi dirçəliş bir neçə fundamental prinsiplərin üzərində qurulacaq ki, bunlardan ən vacibi və ilk sırada dayananı, regionun dirçəlişinin ümumi olaraq ölkənin çoxillik strateji hədəflərinə uyğunlaşdırılmasıdır. Belə ki, burada əsas məsələ təkcə regiondaxili inkişaf yox, dövlət miqyaslı məqsədlərin gerçəkləşdirilməsidir. Burada ən çox diqqətə alınmalı məsələ nəqliyyat infrastrukturunun ən beynəlxalq səviyyədə inkişaf etdirilməsidir. Çünki, bu beynəlxalq nəqliyyat daşımaçılığının üstün templə inkişafına xidmət edəcəkdir. Digər baxımdan ölkənin başqa bir strateji məqsədi ölkənin ərzaq təhlikəsizliyinin təmin edilməsi məsələsidir ki, işğaldan azad edilmiş ərazilərdə bu məqsədə çatmaq üçün yaradılan müəssisələr dövlət himayəsində saxlanılmalıdır.Növbəti prinsipial məsələ isə sahəvi inkişafdırkı, burada kənd təsərrüfatı və turizm resurslarının fərqləndirilməlidir. Digər araşdırılmalı olan məsələ isə yenidənqurma işlərinə cəlb olunacaq işçi qüvvəsidir ki, kadr ehtiyatı repriantlar arasından seçilib cəlb olunmalıdır.

“Böyük Qayıdış” proqramının həyata keçirilməsi zamanı qarşıya qoyulan ilk iş prioritet sahələrin tədqiq edilməsidir. O Sözügedən sahələr növbəti illərdə regionun iqtisadiyyatının müqayisəli rəqabət üstünlüklərini yaradacaqdır. Bütün bunlar nəzərə alınaraq, aşağıdakılara diqqət edilməlidir:

Müqayisəli rəqabət üstünlüyü nəzəriyyəsinə əsasən inkişaf etdiriləcək sahələr seçilərkən ölkənin gələcək potensialı nəzərə alınmalıdır. Region iqtisadiyyatına ölkənin

öz dövlətlərarası-regional və qlobal iqtisadi funksiyalarını həyata keçirməsində vasitəçi olan müqayisəli rəqabət üstünlüyü verən müəssisələr salınmalıdır.

• Bu müəssisələrin fəaliyyəti, daha çox yerli xammal və təbii ehtiyyatlar potensialına əsaslanmalıdır.

• Həmçinin belə müəssisələr işğaldan azad olunan ərazilərdə yaşayan insanların məşğulluq probleminin həllinə köklənməlidir.

“Böyük Qayıdış” proqramı çərçivəsində diqqət mərkəzində saxlanılan bir məsələdə əhalinin gəlirlərinin müəyyənləşdirilməsidir. Belə ki, burada əmək haqqının aşağı həddi qismində, ölkə üzrə orta əmək haqqını götürmək uyğun olardı ki, qayıdış prosesi stimullaşdırılmış olsun. Nəticə etibarı ilə istər bərpa ediləcək müəssisələr, istərsə də yenidən yaradılacaq müəssisələrin siyahısı müəyyənləşdirilərkən, onların vacibliyinin əsaslandırılması şərtdir. Buna görədə ilkin meyar qismində müəssisələrin rəqabət qabiliyyəti anlayışından istifadə olunması məqsədəuyğundur:

• Perspektivli müəssiələrin istehsal etdiyi məhsullar beynəlxalq, regional və yerli bazarda rəqabətə davamlı olsun. Bir məsələ də qeydə alınmalıdır ki, bu və ya digər müəssisənin xidmət və məhsulları insanların həyat təminatı sistemləri ilə hər hansı bir formada əlaqəli olduğu halda (daha spesifik yanaşsaq, repatriasiya dövrünün başlanğıc mərhələsində), bu xüsusiyyət müəssisənin prioritetlik dərəcəsini kəskin surətdə artırır. İndiki mərhələdə azad edilmiş rayonların resurs potensialını öyrənərkən rayonun iqtisadiyyatında sistem qurucusu rolu ola biləcək sahələr fərqləndirilməlidir. Həmin sahələrə aid oluna bilənlərə . Aqrar sahədə taxılçılıq, heyvandarlıq, xüsusilə atçılıq, yüngül sənayedə xalçaçılıq, gön-dəri istehsalı, ağır sənayedə inşaat materialları sənayesi, qida sənayesində ət-süd məhsulları sənayesi, şərabçılıq sənayesi, xidmət sektorunda turizm, musiqi və s (Müzəffərli N, İsmayılov E. 2010).

# II FƏSİL. İŞĞALDAN SONRAKI DÖVRDƏ AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ VƏ İNVESTİSİYA İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. İşğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun təşkili zamanı regionun iqtisadi xüsusiyyətlərinin nəzərə alınması və əlverişli sahələrin inkişaf etdirilməsi

Vətən müharibəsinin başa çatdırılması və Qarabağın işğaldan azad edilməsi, müharibəsi sonrasında Qarabağ torpaqlarının ölkəmizin bazar iqtisadiyyatına təsiri Azərbaycanın kifayət qədər iqtisadi potensial toplamasına gətirib çıxardı. Hazırda respunlikamızda təbii sərvətlərin əlverişli istifadə ilə əlaqədar olaraq iqtisadi islahatların sayı artırılmaqdadır. Sosial məkanın və iqtisadiyyatın bazarın tələblərinə görə yenidən işlənməsi ilə bağlı əhəmiyyətli addımlar atılmağa başlanılmışdır (Sadıqov E., 2021).

Nəzərdə tutulan məqsədlərin uğurlu icrası, hər şeydən əvvəl, Ermənistanın işğalçılıq siyasəti nəticəsində təsərrüfat sahələrinə dəyən ziyanın, düşmən tapdağı altında olan ərazilərimizin itirilmiş potensialın düzgün müəyyənləşdirilməsi və mövcud potensialın dəyərləndirilməsi, həmin potensialın əlverişli şəkildə realizə edilməsi üçün imkanların və resursların müəyyənləşdirilməsi və mühüm hesab edilən iqtisadi mexanizmlərin işlənib hazırlanmasını, həmin ərazilərdə inkişafın başlıca istiqamətlərinin və sektorlarının təyin olunmasını vacib edir. Burada isə həmin sektorlar diqqət mərkəzində saxlanılır ki, həmin sahələr önümüzdəki dövrdə ölkə iqtisadiyyatının müqayisəli rəqabət üstünlüklərini təmin edəcəkdir.

Ermənistanın hərbi təcavüzünün sonrası ölkəmizin məruz qaldığı zərər və itkilərin dəyərləndirilməsi məqsədilə ilk dövrlərdən ölkə rəhbərinin tələbi ilə ərsəyə gətirilmiş işçi qrupu 2014-cü ildən etibarən, həmin işlə xüsusilə məşğul olmuş və dəqiq nəticələrə varmışdır. Ortaya çıxmışdır ki, işğal altında olan bölgələrdə 1988-1994-cü illər ərzində 2,4 min sənaye, aqrar sahə müəssisələri və başqa obyektlər tamamilə məhv

olmuş, , 350-ə qədər körpü, 5,2 min km avtomobil yolu, 116 dəmir yolu körpüsü, 286 km dəmir yolu xətti, 7,6 min km su xətti, 224 su anbarı, 76,9 min km elektrik xətti, 2 min km qaz kəməri xətti, 2,5 min ədəd transformator və s. infrastruktur obyekti talan olunmuş və ya dağıdılmışdır.

Bundan əlavə, kənd təsərrüfatı məqsədli, xüsusi əhəmiyyətli iqtisadi potensiala önəmli dərəcədə ziyan dəymiş, əkin sahələrinə yararlı olan böyük həcmdə torpaqlar suvarılmayaraq iqtisadi dövriyyədən çıxarılaraq işğalçılar tərəfindən ələ keçirilmişdir. Ümumilikdə baxıldıqda, 2017-ci il üçün işçi qrupu tərəfindən verilmiş məlumata görə, düşmən işğalı və hərbi təcavüzü sonrası ölkəmizə dəymiş zərər və itkilərin ümumi dəyəri 820 milyard dollar kimi qiymətləndirilmişdir. Lakin buna şübhə yoxdur ki, Vətən müharibəsi dövrü müddətində ölkəmizə dəymiş ziyanın və itkinin dəyərini və ya Qarabağ ərazisində əvvəllər fəaliyyət göstərən obyektlərin işğaldan sonra dağıdılması nəritəsində geri qaytarılması mümkün olmayan, itirilmiş mənfəət və gəlirləri diqqətə alsaq, bu məbləğ olduqca yüksək olacaqdır (Manafov Q., 2020).

Azərbaycan torpaqlarının işğal altında tutulması Ermənistana önəmli bir iqtisadi töhfə verməmişdir. Nəzərdə tutulan bğlgələrin yerüstü və yeraltı sərvətlərlə zəngin olmasına, mineral sular, əlvan metal filizləri, qızıl, civə, əqiq, xromit, perlit, əhəng, mərmər və s. çox yayılan faydalı qazıntılara sahib olmasına və bunlarla yanaşı zəngin kurort-rekreasiya imkanlarına sahib olmasına baxmayaraq, Ermənistan həmin imkanlardan heç zaman sözün əsl mənasında istifadə edə bilməyib. Azərbaycan Sənaye Korporasiyası və “AzerGold” QSC bu sərvətlərin emalı və hasilatını təmin də biləcək təcrübə, investisiya, ixtisaslı kadr və ixrac potensialına sahibdir. Bununla da, yeni təbii htiyatların dövriyyəyə cəlb olunması ölkəmizin qərb regionunun inkişafı, dağ-mədən sənayesinin, həmçinin metallurgiya kompleksinin inkişafını təmin etmə imkanlarına sahibdir.

Azərbaycanda metallurgiyanın inkişafı bir sıra sənaye sahələri ilə bərabər, həmçinin də hərbi sənayenin inkişafınına gətirib çıxaracaqdır. Azərbaycan Ordusunun təchizatında 5G texnikalarına sahib hərbi sənayemiz də öz sözünü deməlidir. İşğaldan

azad edilmiş bölgələrimizdə “tikinti bumu” olacağı nəzərdə tutulur. Həmin bölgələrin azad olunması ilə illər üzrə qeyri-neft sahəsində inkişafla əlaqədar qəbul olunan proqnozlar bir daha yenidən hazırlanmalı olacaq. Ona görə ki, bu qələbə həmçinin qeyri-neft sektorunun daha intensiv inkişafına təkan verəcək. Həmin bölgələrin işğaldan azad edilməsinin iqtisadi inkişafa təsiri olduqca əməmiyyətli olacaq (Sadıqov E.,2021).

Günümüzdə ölkəmiz tərəfindən işğaldan azad edilmiş ərazilərin yenidənqurulması və inkişafı ilə əlaqədar konsepsiya işlənib hazırlanmışdır. Həmin konsepsiyanın həyata keçirilməsinin başlıca istiqaməti olaraq nəzərdə tutulan ərazilərin iqtisadi imkanları və həmçinin torpaq, meşə və su rezervləri diqqətdə saxlanılmaqla burada sənayenin, turizmin, kənd təsərrüfatının və s. inkişafı və dirçəlməsi çıxış edir. Hər bir kəsə məlumdur ki, indiki dövrdə işğaldan azad edilmiş bölgələr zəngin yerüstü və yeraltı ehtiyatlara: əlvan metallar, qızıl, filiz, civə, əhəng, mərmər, əqiq, xromit, mineral sular və s. kimi mineral sərvətlərə və zəngin turizm-rekreasiya imkanlarına sahibdir. Həmçinin, bu ərazilərdə inşaat üçün mühüm olan bir çox tikinti məhsulları: çınqıl, sement, mişar daşı, kərpic, əhəng daşı, istehsal üçün zəruri mallar, tikinti qumu və s. mövcuddur. İşğal dövrünə qədər bu bölgələrdə fəaliyyət göstərən sənaye sektorları ölkə tərərrüfatı üçün mühüm əhəmiyyət kəsb edir. Burada xüsusilə yüngül, yeyinti, tikinti materialları və s. sənaye sektorları xüsusilə inkişaf etmişdir. İşğal dövrünə qədər həmin bölgələrin sənaye sektorları arasında daha çox inkişaf edənləri yerli sakinlərin ərzaqla təmin olunmasında xüsusi əhəmiyyət kəsb edirdi (Manafov Q.,2021).

İşğal edilmiş ərazilər işğaldan öncəki dövrdə ölkədə istehsal olunan kənd təsərrüfatı mallarının 35-40%-ə qədərini təmin edirdi. Lakin işğalçıların nəzarəti altında olduğundan bu bölgə Ermənistan üçün səmərəli olmamışdır. Yalnızca Qarabağ bölgəsində 250 min hektardan artıq yararlı torpağın mövcud olmasına baxmayaraq, həmin sahələrin sadəcə 7 %-dən istifadə olunurdu.

Kənd təsərrüfatı sektorunda isə həmin ərazilər taxılçılıq, üzümçülük, pambıqçılıq, kartofçuluq, yem istehsalı, tütünçülük, bağçılıq, bostançılıq, ətlik-südlük

heyvandarlıq, ələxsus da qoyunçuluqsahəsində ixtisaslaşmışdır. Həmin bölgədə indiki dövrdə işğal nəticəsində dağıdılmış 311 kənd təsərrüfatı obyekti, 319 kolxoz və 92 sovxoz və həmçinin məşhur Qarabağ sortu atlar yetişdirilən Ağdam atçılıq sovxozu fəaliyyət göstərirdi. Ümumilikdə isə işğaldan öncəki dövrdə bu ərazilərdə ölkənin kənd təsərrüfatı mallarının təxminın 35-40 %-i, o cümlədən ətin 14 %-i, taxılın 14 %-i, baramanın 17 %-i, yunun 19 %-i, südün 17 %-i, üzümün 31 %-i istehsal olunurdu. Qeyd edilənlər bir daha sübut edir ki, hazırda işğaldan azad olunmuş ərazilərdə əkinçilik və heyvandarlıq mallarının istehsalı üçün geniş imkanlar vardır və mövcud təbii iqlim şəraiti bu sektorların inkişafı və dirçəldilməsi üçün səmərəli şərait meydana gətirir. Bütün bunlar isə iqtisadi imkanlar və potensialın reallaşdırılması, aqrar sektor mallarının emalı sahələrinin dirçəlməsinə, bölgə sakinlərinin bu əmtəələrə olan tələbatının ödənilməsinə, ən başlıcası isə ölkəmizdə ərzaq təhlükəsizliyinin inkişafına əlverişli şərait yaradacaq və heyvandarlıq məhsulları ilə özünütəminetmə durumu yaxşılaşacaqdır. Tutaq ki, indiki zamanda ölkəmizin süd və süd məhsulları ilə özünütəminetmə dərəcəsi 86,2%, ət və ət məhsulları ilə 82,5%, təşkil edir. Hazırlanan proqnozlara görə, işğaldan azad olunmuş bölgələrdə iqtisadi vəziyyət bərpa olunduqdan sonra ölkə bu məhsullarla, eyni zamanda da dənli bitkilərlə daha yüksək səviyyədə təmin olunacaq. Düşmən işğalından azad edilmiş bölgələrimizin sənaye imkanlarının iqtisadi dövriyyəyə cəlb olunması metallurgiya, dağ-mədən, tikinti materialları, fərqli xarakterli emal sənayesi sektorlarının inkişafına fürsət verəcəkdir. Hesablanmış ilkin proqnozlara görə, qarşıdakı bir neçə ildə Kəlbəcər-Laçın və Yuxarı Qarabağ iqtisadi rayonlarında mühüm sektorlarda ümumi istehsalın həcmi 2 mlrd manatdan çox yüksələ bilər.

İndi isə düşmən işğalından azad edilmiş bölgələrimizin bol su rezervlərinə nəzər salaq. Bildiyimiz kimi Azərbaycanın su ehtiyatlarının 72,7 %-i ölkə xaricində formalaşır, bu səbəbdən də işğal altında olan bölgələrdəki su resurslarına çıxış məsələsi olduqca mühüm əhəmiyyət kəsb edir. Əsasən də Laçın və Kəlbəcər rayonları şirin su yaxşı təmin olunmuşdur, hətta Göyçə gölünü qidalandıran Bərgüşad və Arpa çaylarının

da mənbəyi həmin bölgədədir. Bununla yanaşı, ümumi su tutumu 560 milyon kub metr olan Sərsəng su anbarı vasitəsilə Ağdərə, Tərtər, Goranboy, Bərdə, Yevlax və Ağcabədi əraziləri suvarma suyu ilə təmin olunacaqdır (Sadıqov E.,2021).

Qarabağın hazırki iqlim şəraitinə, potensial resurslarına və geoloji mövqeyinə nəzər salsaq, hansı sektorların prioritet olduğunu müəyyənləşdirə bilərik. Konkretləşmiş bir bölgü aparsaq bu aşağıdakı şəkildə olacaqdır.

1) Turizm sektoru – Qarabağın xüsusi potensial coğrafi mövqeyə malik olması, Kiçik Qafqaz dağlarında yerləşməsi turizm potensialının mühüm səviyyədə inkişaf etdirilməsinə səbəb ola bilər. Düzünü desək, Qarabağ bölgəsinin turizm imkanlarından əldə edilən gəlir ümumi ölkənin turizm imkanlarından əldə edilən gəlirdən daha çox ola bilər. Bu məqsədlə tarixi obyektlər və həmçinin də bölgənin təbiəti və ekoloji potensialı bərpa edilməli, qlobal xarakterli turizm təşkilatlarının qəbul etdiyi hədəflərdən istifadə edərək müasir turizm şəraiti formalaşdırılmalıdır. Bölgədə ayrı-ayrı müalicə məqsədli ehtiyatların mövcudluğu eyni zamanda tibbi turizmin də inkişafına təkan verəcəkdir.

2) Aqrar sektor – Regionun kənd təsərüfatında yararlı torpaqlara və əlverişli iqlim şəraitinə sahib olması kənd təsərrüfatının, tərəvəz məhsullarının istehsalına, eləcə də bitkiçilik və heyvandarlıq sektorlarının inkişafına əhəmiyyətli dərəcədə dəstək olacaqdır. Belə ki, yalnızca 7 rayonun kənd təsərrüfatına üçün səmərəli torpaqlarının ümumi həcmi 535 min hektar təşkil edir. Bu səbəbdən də, kənd təsərrüfatının ən modern texnologiyalar vasitəsilə inkişaf etdirilməsi yerli tələbatın qarşılanması yönündə önəmli töhfələr verəcək, və həmçinin əmtəələrin xarici dövlətlərə ixrac edilməsi üçün dəyər formalaşdıracaqdır.

Düşmən işğalından azad olunmuş bölgələrdə ənənəvi sektorlarla bərabər gələcəkdə meyvə və tərəvəzçiliyin, heyvandarlığın yemlə təmin olunma baxımından yem bitkiləri sektorunun da inkişafı nəzərdə tutulur. Torpaq-iqlim keyfiyyətləri diqqətdə saxlanılmaqla çoxillik əkmələrin tərkibində xurma, gilas, alça, nar, gavalı, albalı, armud, alma bağlarının, baramaçılığın inkişaf imkanları baxımından çəkil

əkmələrinin və ənənəvi sektorların bərpası üçün üzümlüklərin salınmasına əhəmiyyət veriləcəyi proqnozlaşdırılır.

3) Mədən sənayesi – Qarabağda rezervlərin mövcudluğu təsdiq olunmuş qeyri-metal xarakterli faydalı qazıntı yataqları işğal olunmuş Qarabağ bölgəsində kükürd kolçedanı, soda xammalı, litoqraf daşı kimi dağ-kimyəvi xammal, jadeit, əqiq, obsidian kimi qiymətli-zinət və yəşəm, mərmər oniksi, felzit tufu, listvenit kimi zinət daşları, bunlarla yanaşı ümumi ehtiyatları on milyon kub metrlərə bərabər olan mişar, üzlük və inşaat daşları, sement xammalı, büzücü maddələr, mineral boyalar, inşaat kərpici üçün xammal, beton doldurucuları və yoltikinti xammalı kimi inşaat maddələri ilə təmsil olunur. Bu sektorun inkişafı paralel olaraq ayrı-ayrı növ malların istehsalı üçün xüsusi zəmin formalaşdırır.

4) Enerji istehsalı –bu regionda mühüm əhəmiyyəti və bol sulu çaylar, eləcə də su anbarları mövcuddur. Burada istifadəyə veriləcək elektrik stansiyaları ölkənin enerji ilə təminatının və eləcə də enerji ixracının mühüm bir hissəsini öz üzərinə götürəcəkdir.

5) Mineral sular – bu regionda həmçinin, təbii və tibbi əhəmiyyətli mineral sular da vardır. Həmin mineral suların istehsalı, qablaşdırılması və qlobal bazara çıxarılması ən uğurlu investisiyalardan biridir. Həmçinin bu suların müalicə xarakterli istifadəsi regionda xüsusilə tibbi turizmin inkişafına da səbəb olacaqdır.

6) Baramaçılıq – Qarabağ bölgəsinin cənub hissəsində yerləşən regionların başlıca fəaliyyət sahələrinə nəzər salsaq, baramaçılığın əsas gəlir sahəsi olduğunu müəyyən etmək olar. Bu məqsədlə, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl bölgələrində xüsusi ipəkçilik və baramaçılıq obyektlərinin fəaliyyət göstərməsi regionun və bununla yanaşı, yan sahələrin inkişafına xüsusi təkan verəcəkdir (Səfərli E., 2021).

Qeyd olunan sahələri alt qruplara təsnifləşdirməklə aşağıdakı bölgünü almaq olar:

Kənd təsərrüfatında:

- Taxılçılıq. 2008-ci ildə yer kürəsi, beynəlxalq xarakterli ərzaq böhranı təhlükəsi ilə üz-üzə qaldı və yekun olaraq bir daha məlum oldu ki, kənd təsərrüfatının sahə strukturuna baxışlarda bir sıra dəyişikliklər olunmasına ehtiyac vardır. Ölkəmizə hər il

1 mln. tondan daha çox taxıl idxal edilir. Qazaxıstanın 2008-ci ildə yeni məhsul yığımı bitənə qədər taxılın ixracını dayandırdığını elan etməsi ilə ölkəmiz taxıl idxalında ilk dəfə bəzi mühüm çətinliklərlə qarşılaşdı və sadəcə ölkə rəhbərliyinin aktiv müdaxiləsi sayəsində böhranın qarşısı alına bildi. Bunu da qeyd etməkdə fayda vardır ki, son illərdə qlobal bazarlarda taxılın qiyməti daima artmaaqdadır və taxıl məhsullarının real ehtiyacları qarşılamağa fiziki surətdə çatmama və tələbin təklifi üstələməsi səbəbi ilə yaxın gələcəkdə bu artım meyli çox güman ki, daha da sürətlənəcəkdir. Nə vaxta qədər ki ölkəmiz öz ehtiyaclarını yerli istehsal hesabına tam təmin edə bilmir, taxıl istehsalının genişlənməsi, mahiyyət etibarilə, idxalın əvəzlənməsi mənasını verir. Bu səbəbdəb də taxılçılıq Azərbaycanın iqtisadi inkişafında prioritet istiqamətlər sırasına daxil oluna bilər. Bütün bunlar əsas götürülərək, düşmən işğalından ilk növbədə azad olunacaq ərazilərdə kənd təsərrüfatının prioritet sahələrini müəyyən edərkən nəzərdə almaq lazımdır ki, qeyd olunan 7 rayondan ən azı üçü – Füzuli, Cəbrayıl və Ağdam bölgələri taxılçılıq üçün kifayət qədər münbit təbii-iqlim şəraitinə sahibdir. Bu bölgələrimizdə taxıl istehsalında bir baxımda köklü və çoxəsrlik ənənə, digər bir baxımdan isə son onilliklər ərzində toplanmış müasir istehsal və emal təcrübəsi mövcuddur. Qeyd olunanlar isə tam əsas verir ki, taxılçılıq, keçmiş münaqişə bölgələrində iqtisadiyyatın dirçəldilməsində ən başlıca sahəvi prioritetlər siyahısına aid edilsin. Əsas məqsədlərdən biri budur ki, kənd təsərrüfatı torpaqları dövriyyəyə kifayət qədər tez geri döndürülsün və taxıl əkininə qədərki müddət minimuma endirilsin.

DSK-nın məlumatlarına uyğun olaraq, 1980-ci illərdə həmin ərazidə 139.8 min hektar yararlı sahə mövcuq idi. Xüsusən taxıl sahələri və üzümlüklər çoxluq təşkil edib: Belə ki, əkilmiş sahənin 55%-i taxıl, 35%-i üzümlük sahələridir.

**Cədvəl 2: 1980-ci illər üzrə əkin sahələrinin strukturu, ha**

| | Taxıl | Pambıq | Tütün | Kartof, tərəvəz | Meyvə | Üzüm | Cəm |
|---|---|---|---|---|---|---|---|
| Qarabağ | 37.776 | - | 198 | 1317 | 1.701 | 11.211 | 52.203 |
| Ağdam | 7.660 | 7.565 | - | 259 | 287 | 13.042 | 28.813 |
| Cəbrayıl | 8.995 | - | - | 144 | 48 | 6.570 | 15.757 |
| Füzuli | 13.214 | 600 | - | 201 | 76 | 14.148 | 28.239 |
| Kəlbəcər | - | - | 660 | 6 | - | - | 666 |
| Qubadlı | 3.401 | - | 589 | 88 | 91 | 997 | 5.166 |
| Laçın | 3.852 | - | 83 | 63 | 175 | - | 4.173 |
| Zəngilan | 1.929 | - | 359 | 61 | 57 | 2391 | 4.797 |
| Cəmi | 76.827 | 8.165 | 1.889 | 2139 | 2.435 | 48.359 | 139.814 |
| Cəmi % | 14.3% | 2.7% | 11.6% | 10.9% | 1.8% | 24.7% | 7.7% |

**Mənbə**:https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/ mənbəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

1980-ci illərin göstəriciləri və Füzuli və Ağdamın bizə məxsus faktiki əraziləri əsas tutulmaqla perspektiv üçün bu ərazilərdə 232.8 min hektar əkin olacağı ehtimal edilir proqnozlaşdırılır.

**Cədvəl 3: Perspektivdə əkin sahələrinin proqnozlaşdırılan strukturu, ha**

| | Taxıl | Pambıq | Tütün | Kartof, tərəvəz | Meyvə | Üzüm | Cəm |
|---|---|---|---|---|---|---|---|
| Qarabağ | 48.500 | - | - | 2.100 | 1.700 | 2.300 | 55.000 |
| Ağdam* | 28.862 | 4.601 | - | 9.816 | 2.565 | 500 | 63.253 |
| Cəbrayıl | 10.400 | - | - | 300 | 800 | 1.200 | 20.000 |
| Füzuli* | 50.465 | 1300 | - | 1.769 | 2.679 | 761 | 69.553 |
| Kəlbəcər | 900 | - | 200 | 200 | 500 | - | 1.800 |
| Qubadlı | 6.300 | - | 400 | 400 | 2.500 | 400 | 11000 |
| Laçın | 2.300 | - | - | 200 | 500 | - | 4000 |
| Zəngilan | 1.900 | - | 300 | 300 | 2.200 | 1000 | 8.200 |
| Cəmi | 149.627 | 5.901 | 900 | 15.085 | 13.443 | 6.161 | 232.805 |
| Cəmi % | 12.8% | 5.8% | 22.5% | 9.6% | 6.0% | 27.9% | 11.1% |

**Mənbə**:https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/ mənbəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

**Ağdam və Füzuli rayonlarının işğala məruz qalmayan ərazilərindəki faktiki sahələr nəzərə alınmaqla*

Bunu da vurğulamaq lazımdır ki, işğaldan azad edilmiş bölgələrdə əkin məqsədi ilə istifadə olunacaq torpaq sahələrinin ümumi ölçüsü ilə əlaqədar proqnozlaşdırma

1980-ci illərin rəsmi statistikası əsas götürülərək, keçən zaman ərzində ölkədə kənd təsərrüfatının inkişaf trendlərinə görə ekstrapolyasiya olunmaqla aparılmışdır.

- Atçılıq. Hazırki dövrdə minik atlarının sadəcə bir neçə məşhur cinsi digərlərindən fərqləndirilməkdədir. Axaltəkə, Ərəb və xalis İngilis atları ilə barabər, bu siyahıda Qarabağ cıdır atları da öz yerini tutmuşdur. Qarabaq at cinsi orta əsrlərdən etibarən bütün dünyada tanınmış və XX əsrdə atlar öz hərbi və nəqliyyat aktuallığını itirməyə başlayanadək qədər populyarlığını qoruyub saxlamışdır. Haırda nəqliyyat vasitəsi olaraq istifadə olunmasalar belə, Qarabağ atları idman, əyləncə və turizm məqsədi ilə əvvəllər olduğu kimi yenə də dünyanın ən çox sevilən və alınan at cinsləri sırasındadır. Bu sahənin sadəcə adından da anlamaq mümkündür ki, atçılıq, işğaldan azad olunmuş rayonlarda əsas rəqabət üstünlüyü sahələrindən birinə çevrilmək gücündədir. Həmçinin bu da xüsusi bir faktordur ki, Qarabağ atlarının yetişdirilməsi sahəsində tarixi ənənə ilə yanaşı həmçinin, müasir təcrübə də vardır: Ermənistanın işğalına qədər Ağdam ərazisində fəaliyyət göstərən atçılıq zavodu bu sektorun ən faydalı obyektlərindən biri idi. Bunu da bilmək lazımdır ki, həmin bazarda Qarabağ atlarının təklifi tələbdən hələ ki qat-qat aşağıdır. Bu səbəbdən də keçmiş münaqişə ərazilərində atçılıq, nisbətən qısa bir dövr ərzində ən vacib ixracyönlü ektorlardan biri ola bilər. Bununla yanaşı, atçılıq ümumilikdə iqtisadi fəaliyyətin ən yüksək gəlirli sahələrinə daxildir.
- Heyvandarlıq. İşğaldan azad olunmuş ərazilər heyvandarlığın, xüsusilə də dağlıq bölgələrdə qoyunçuluğun inkişaf etdirilməsi üçün mühüm potensiala sahibdir. Heyvandarlıq sahəsində Qarabağ bölgəsinin həm çoxəsrlik ənənəsi, həm də müasir istehsal təcrübəsi mövcuddur. Müasir dövrdə Azərbaycan, əhalinin qoyun ətinə olan tələbini öz istehsalı hesabına qarşılayır, lakin gələcəkdə bu məhsulun ixracı təkcə yaxın qonşu ölkələrə deyil, həmçinin də inkişaf etmiş ölkələrin bazarlarına əhəmiyyətli dərəcədə yayıla bilər.

DSK-nın məlumatlarına uyğun olaraq,ərazidə 1980-ci illərdə 321 min iribuynuzlu və 1.1 milyon xırdabuynuzlu heyvan olmuşdur. Perspektiv üçün isə bu

rəqəmin uyğun formada iribuynuzlularda 430 min başa və xırdabuynuzlu da isə 1.6 milyon başa qədər artacağı gözlənilir.

Heyvanların sayının ölkə üzrə ümumi göstərici nisbətini isə hazırda köçkünlərin sahib olduğu heyvan sayının həmin rayonlara geri dönməsi əsas götürülməklə, orta hesabla iribuynuzlu heyvan üçün 14.7%, xırdabuynuzlu heyvan üçün isə 17.5% olacağı ehtimal olunur. 1980-ci illərdə həmin göstərici iribuynuzlu sayında 16.2% , xırdabuynuzlu da isə 19.3% olmuşdur.

**Cədvəl 4: Heyvanların baş sayı, min baş**

| | 1980-ci illər | | | Perspektiv dövr | | |
|---|---|---|---|---|---|---|
| | İribuynuzlu Cəm | İnək və camışlar | Xırdabuynuzlu cəm | İribuynuzlu Cəm | İnək və camışlar | Xırdabuynuzlu cəm |
| Qarabağ | 95.6 | 30.7 | 264.3 | 127.9 | 41.0 | 376.6 |
| Ağdam* | 44.4 | 16.4 | 191.8 | 59.4 | 22.0 | 273.2 |
| Cəbrayıl | 26.4 | 8.9 | 114.2 | 35.3 | 11.8 | 162.7 |
| Füzuli* | 37.8 | 13.4 | 149.0 | 50.5 | 18.0 | 212.3 |
| Kəlbəcər | 31.9 | 11.0 | 97.4 | 42.6 | 14.6 | 155.3 |
| Qubadlı | 22.8 | 8.3 | 30.6 | 30.5 | 11.1 | 43.6 |
| Laçın | 43 | 14.8 | 224.8 | 57.5 | 19.8 | 320.3 |
| Zəngilan | 19.1 | 6.8 | 34.6 | 25.6 | 9.1 | 49.2 |
| Cəmi | 321.0 | 110.3 | 1106.7 | 429.3 | 147.4 | 1593.2 |
| Cəmi % | 16.2% | 14.8% | 19.3% | 14.7% | 10.9% | 17.5% |

**Mənbə**:https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/ mənbəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bu sektorun yüksək inkişafı ölkənin ət və süd malları ilə təminatı istiqamətində mühüm əhəmiyyət kəsb edir. Həmin ərazidə əxminən 45 min ton ət və 240 min ton süd istehsal ediləcəyi proqnozlaşdırılır. Bu isə idxal həcminin azaldılması və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından bölgənin xüsusi əhəmiyyətini olduğunu bir daha sübut edir.

- Digər sektorlar. Ermənistanın işğalına qədərki dövrdə bölgədə kənd təsərrüfatının başlıca sahələri sırasında pambıqçılıq və üzümçülük də var idi. İşğaldan azad olunmuş ərazilərin, demək olar ki, hamısının təbii-iqlim şəraiti xüsusi üzüm

sortlarının becərilməsi üçün, Ağdam və Füzuli rayonlarının isə pambıq istehsalı üçün əlverişli imkanları vardır. Bu sahələri inkişaf etdirməyin nə dərəcədə prioritet vəzifə olduğunu müəyyən etdimək üçün onların müqayisəli iqtisadi səmərəliliyi özəl olaraq təhlil olunmalı və dəyərləndirilməlidir.

Sənayedə:

- Xalçaçılıq. Bir sözlə ifadə etsək, əl ilə toxunmuş Azərbaycan xalçalarına qlobal bazarda yetəri qədər yüksək tələb var, Qarabağ xalçaları isə bunların ən məşhurlarındandır. Artıq uzun illərdir ki Qarabağ xalçaları öz qlobal şöhrətini və xalça toxuculuğu ənənələrini qoruyub saxlamaqdadır. Qarabağ sakinləri həmin ənənələri məcburi köçkünlük illərində belə də itirməmişdir. Bunu da qeyd etmək lazımdır ki, keyfiyyət baxımından bütövlükdə Azərbaycan xalçaları, həmçinin də Qarabağ xalçaları dünyadakı ən yaxşı xalçalardan hesab olunur. Sənaye sahəsi kimi xalçaçılıq bir sıra üstünlüklərə malikdir. Birincisi, Qarabağ xalçalarının ixrac potensialı olduqca yüksəkdir. Onların dünya bazarlarında tam yerləşməsi üçün görülməli olan yeganə iş, aktiv marketinq və reklam siyasəti aparmaqdır. Lakin, həmçinin bu işi qəlizləşdirən amil də vardır: uzun zamandır ki, Qarabağ xalçaları, inkişaf etmiş ölkələrin bazarlarında daha yaxşı tanınan başqa brendlər altında satılmaqdadır. Bu səbəbdən brend-menecmentin səviyyəsi bu sektorun perspektivini müəyyən edən əsas amillərdən olacaqdır. Növbəti, xalça toxuculuğu həm ixtisaslaşdırılmış fabriklərdə, həm də ev şəraitində təşkil edilə bilər və istehsal fəaliyyətinin hazırlanması baxımından, o qədər də yüksək yatırımlar tələb etmir. Üçüncüsü, xalçaçılıq kifayət qədər mənfəətli bir sektordur. İlkin marketinq araşdırmalarına əsasən, dünya bazarlarında Qarabağ xalçalarının hər kvadrat metrinin dəyəri 100 manatdan ucuz deyil. Nəhayət, sonuncusu, bir sektor olaraq xalçaçılığın özünəməxsus keyfiyyətlərindən biri də budur ki, xalçada əl əməyi nə qədər çoxdursa, qiyməti də bir o qədər daha bahadır. Bu, ipin əyirilib rənglənməsindən tutmuş, xalçanın toxunmasına qədərki hər bir istehsal mərhələsinə aiddir. Hətta, soğan qabığı kimi təbii vasitələrdən kustar yollarla alınmış təbii boyaların istifadəsi belə, son məhsulun dəyərini artırır. Bu səbəbdən də xalçaçılıq iqtisadiyyatın

əməktutumlu sektorlarındandır və bu baxımdan, keçmiş münaqişə bölgələrində əhalinin effektiv məşğulluğunun təmin olunmasında əvəzsiz rol oynaya bilər.

- Gön-dəri sənayesinin də səmərəli inkişaf imkanları vardır. Çünki qeyd olunduğu kimi işğaldan azad olunmuş ərazilərdə heyvandarlıq, kənd təsərrüfatının ən yüksək prioritetli və sürətlə inkişaf edən sahələrindən biri olacaqdır. Son dövrlərdə Azərbaycanda gön-dəri sənayesi yetəri qədər sürətlə inkişaf etsə belə, əvvəlki zamanlardakı kimi yenə də iqtisadiyyatın kiçik bir hissəsidir və konkret məhsullara olan daxili tələbatın sadəcə az bir hissəsini ödəyə bilir. Ümumilikdə baxıldıqda, dəri, dəri məmulları və ayaqqabı istehsalının emal sənayesindəki ümumi payı təqribən 3% civarındadır. Ayrılıqda baxıldıqda gön-dəri sənayesinin xüsusi çəkisi isə bundan daha aşağıdır, hərçənd ki, bu sektor olduqca mənfəətlidir: ilkin hesablamalara əsasən, bu sahəyə aid müəssisələrin rentabellik səviyyəsi, normal işlədikləri təqdirdə, ildə 100%-ə yaxın ola bilər. Ölkənin daxili bazarında milli şirkətlərin istehsal etdiyi dəri məhsullarının əksər hissəsi idxal olunur. Belə ki, Azərbaycan, ölkədə toplanmış heyvan dərilərini xammal olaraq xarici ölkələrə ixrac edir və əvəzində hazır gön-dəri məmulatları idxal edir. Lakin məlumdur ki, bütövlükdə ölkə, həmçinin də Qarabağ bölgəsi həmin məhsulları yerində istehsal etmək üçün yetəri qədər əlverişli imkanlara sahibdir. Bununla yanaşı, onu da qeyd etməkdə fayda vardır ki, yüksək keyfiyyətli dəri və dəri məhsullarını ixrac etmək potensialı praktik olaraq qeyri-məhduddur. Bu sektorun inkişafı iki ciddi maneə ilə qarşılaşa bilər. Əvvəla, gön-dəri istehsalı yüksək səviyyədə sututumluluğu ilə fərqlənir, hərçənd ki çirkab suların təmizlənməsində istifadə olunan müasir üsullar kifayət qədər effektivdir və bunlardan istifadə etməklə su mənbələrinin çirklənməsinin qarşısını almaq mümkündür. İkincisi, işğaldan azad olunmuş bölgələrdə gön-dəri məhsulları istehsalının müasir ənənəsi və təcrübəsi, demək olar ki, yox dərəcəsindədir. Lakin, sözügedən istehsal, texnoloji cəhətdən çox da mürəkkəb deyil. Hətta, son illərdə ölkənin başqa bölgələrində aktiv şəkildə inkişaf etməkdədir.

• İnşaat materialları sənayesi. İşğaldan azad olunmuş bölgələrin hər biri müxtəlif inşaat materialları rezervlərinə sahibdir və bu rezervlər bəzi hallarda olduqca zəngindir. Misal üçün, əhəng daşı rezervlərini və inşaat sementinin istehsalında istifadə edilən təbii xammal yataqlarını göstərmək olar. Bu sektorda, illərdir ki istifadə edilən istehsal ənənələri mövcuddur. Keçmiş münaqişə ərazilərində həyata keçirilən bərpa işləri, Azərbaycanda indiyə qədər görünməmiş səviyyədə getdiyinə görə inşaat materiallarına olan tələb də görünməmiş bir səviyyəyə qalxmışdır. Təxmini araşdırmalar belə göstərir ki, inşaat materiallarının həmin regionlardakı yerli yataqlarının istifadəyə verilməsi bu ehtiyatların ölkənin başqa regionlarından gətirilməsinə nisbətən daha sərfəli və daha rentabellidir. İnşaat materialları sənayesinə aid obyektlərin yüksək səviyyədə rentabelli olacağını əminliklə proqnozlaşdırmaq mümkündür.

• Ət-süd məhsulları sənayesi. Qeyd olunan sektorun inkişafı, mahiyyət etibarilə, idxalı əvəzləmək deməkdir. Bu səbəbdən də başlıca prioritet sahələr siyahısında olmalıdır. İşğaldan azad olunmuş bölgələrdə heyvandarlığın inkişafı onun qısa bir zamanda dirçəlməsinə önəmli təkan verəcəkdir. Bu regionda istehsal ənənələri yetəri qədər zəngindir. Bununla yanaşı, hazırda ölkədə xarici istehsalçılarla rəqabətə davam gətirən və hətta onları sıxışdıran bir çox milli şirkətlər fəaliyyət göstərir Həmin milli şirkətlər işğaldan azad olunmuş rayonlarda da iş qurmağa hazırdır, hətta bəziləri bu biznes imkanını səbirsizliklə gözləməkdədir.

• Şərabçılıq sənayesi. Qeyd etdiyimiz kimi, işğala dövrünə qədər üzümçülük region iqtisadiyyatında başlıca sahələrdən biri idi. Əgər bu sahədə əsaslı addımlar atılarsa və üzümçülük yenidən kənd təsərrüfatındakı mühüm sektorlardan birinə çevrilərsə, o halda şərabçılıq sənayesinin intensiv inkişafı üçün kifayət qədər geniş imkanlar açılacaqdır. Bu sektorun inkişafına müsbət təsir edəcək faktorlar, işğal dövrünə qədər regionda müvafiq istehsal ənənələri mövcud olması və şimaldakı irihəcmli satış bazarlarının coğrafi yaxınlığıdır. Mane olan faktorlar, yetərincə məşhur brendlərə malik olmadan alkoqollu içkilərin, xüsusilə də süfrə şərablarının qlobal

bazarına girişin son dərəcə çətin olmasıdır. Daxili tələbə nəzər salsaq, hazırda bazarda fəaliyyət göstərən milli şirkətlər bunu tamamilə qarşılamaq iqtidarındadır.

Xidmətlər sahəsində:

- Turizm. İşğaldan azad edilmiş rayonların dağlıq bölgələri hər zaman Azərbaycan əhalisi, xüsusilə də ətraf yaşayış məntəqələrinin sakinləri üçün turizm məntəqəsi olmuşdur. Həmçinin, bu yerlərə hazırda müstəqil dövlətlər olan keçmiş SSRİ-dən əa xeyli turist gəlirdi. Keçmiş münaqişə rayonlarında turizmin inkişafı Azərbaycanın ümumi inkişaf strategiyasına tam uyğundur. Bölgədə müalicə və kulinariya turizm formalarının inkişaf potensialı xüsusilə genişdir. Bu rayonlarda yerli turizm, yəqin ki, kifayət qədər təhlükəsizlik tədbirləri görüldükdən və həyat təminatı sistemləri dirçəldildikdən dərhal sonra inkişaf etməyə başlayacaqdır.
- Musiqi. Qarabağ bölgəsi hər zaman Azərbaycanın unikal folklor musiqisi olan muğamın mərkəzi olmuşdur. Muğamı rəqabət üstünlüyünə çevirməyin mümkünlüyünü anlamaq üçün bu musiqi növü ilə yaxından tanış olmaq və həmçinin onun Şərq mədəniyyətindəki dəyərini bilmək lazımdır. Uzun tarixi ənənələri və Qarabağ xanəndələrinin ümumi şərq aləmində, xüsusilə də İranda, Hindistanda, Türkiyədə, Pakistanda, Mərkəzi Asiya və Ərəb ölkələrində əsrlər boyu hər zaman sevilən olduğunu nəzərə alsaq, inamla eyə bilərik ki, işğaldan azad edilmiş ərazilər dünya muğam musiqisinin mərkəzinə çevrilə bilər. Həmin yerlərdə beynəlxalq musiqi təhsili mərkəzinin yaradılması, səsyazma studiyalarının açılması, beynəlxalq muğam festivallarının keçirilməsi, Qarabağ xanəndələrinin xaricə qastrol səfərlərinin təşkil olunması və bu kimi digər tədbirlərin keçirilməsi muğamı və bütövlükdə xalq musiqisini mühüm iqtisadi faktora çevirə bilər. Bunu da bilmək lazımdır ki, muğamın qlobal xarakterli təhsil və konsert bazarları Azərbaycanın bu sahədəki ixrac potensialı ilə müqayisədə praktik surətdə qeyri-məhduddur. Bu sahədəki mövcud potensialın iqtisadi tərəflərini daha dərindən öyrənmək üçün əlavə tədqiqatlara ehtiyac vardır (Müzəffərli N, İsmayılov E. 2010).

## 2.2. KOBİA-nın azad olunmuş inzibati rayonların inkişafında rolu və ərazilərin investisiya imkanlarının qiymətləndirilməsi

Tarixən, hətta Qarabağ probleminin mövcud olduğu zamanlarda belə Azərbaycan dünyada investisiya yatırılması məsələsinə görə ən cəlbedici dövlətlərdən olmuşdur. Ümumiyyətlə, 1995-2018-ci illərdə Azərbaycana təxminən 140 milyard ABŞ dolları həcmində xarici investisiya cəlb edilmişdir. Bu sərmayələrin 30%-i Azərbaycan hakimiyyətinin və ölkə sərhədləri daxilində fəaliyyət göstərən ayrı-ayrı özəl müəssisələrin qlobal səviyyəli maliyyə qurumlarından aldığı kreditlərin payına düşür. İnvestisiyaların yerdə qalan hissəsi isə birbaşa xarici investisiyalar kimi qeydə alınmışdır. Belə demək olar ki, Qarabağ probleminin həlli ölkəyə olan investisiya marağını daha da stimullaşdıracaq və önümüzdəki bir neçə il ərzində regiona qoyulması planlaşdırılan sərmayələrin həcmi bir neçə dəfə yüksələcəkdir. Regionun potensial resursları və siyasi-coğrafi mövqeyi də həm milli, həm də xarici investorların diqqətini çəkməkdədir. Hazırda bir çox beynəlxalq təşkilatlar və bizneslər öz fəaliyyət dairəsinə görə azad olunmuş ərazilərə sərmayə yatırmağa hazırdır və yatırmaqdadır. Belə qənaətə gəlmək olar ki, ilkin mərhələdə kiçik və orta biznes səviyyəsinə qoyulacaq investisiyalar növbəti mərhələlərdə iri həcmli investisiyalar üçün mühüm təşviq rolunu oynayacaqdır. İnvestisiyaların cəlb olunmasından əvvəl region üzrə prioritet investisiya planı və sahələri dairəsində xüsusi strategiyaların işlənməsi mühümdür. Regionun potensial ehtiyatları yenidən hesablanmalı, bölgələrin mövcud istehsal amilləri diqqətə alınmalı, yatırımlar üçün dövlət və özəl qurumlar tərəfindən təkliflər paketi hazırlanmalı və investorlara təqdim edilməlidir (Səfərli E.,2021).

Münaqişə zamanı dəymiş ziyanın münaqişə sonrası bərpa prosesi əksər sektorların prioritetləşməsini tələb edir. Həmin sektorların münaqişədən sonra dəqiqləşdirilib yenidənqurulmasına və bərpasına başlanılması məsələsi konkret mexanizmlər tələb edir. Bir sözlə, qlobal təcrübə bunu göstərir ki, əvvəla dəymiş ziyan müəyyənləşdirildikdən sonra minimum yaşayış səviyyəsinin təminatı əsasdır.

Minimum yaşayış səviyyəsinin təmin edilməsini nəzərdə tutan başlıca faktorlar aşağıdakılardır:

- İşğaldan azad edilmiş yerlərin minalardan təmizlənməsi
- Elektrik enerjisi təminatı
- İçməli su və sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası
- Kritik yol infrastrukturunun bərpası
- Ev-mənzil yaşayış sahələrinin bərpası və təminatı
- Humanitar yardım məqsədləri ilə əlaqədar hava limanının bərpası

Əvvəlki dövrdə bu istiqamətlərə yönələn yatırımlar sonrakı dövrdə sosial və iqtisadi canlanmaya səbəb olacaq. Ərazilərin minalardan təmizlənməsi nəzərdə tutulan bölgələrə köçürüləcək əhalinin təhlükəsizliyi üçün ən əsas faktordur. Həmin prosesdən sonra, kritik yol infrastrukturunun bərpası yaşayış sahələri arasındakı gediş-gəliş və başqa vacib təminatların təchiz edilməsini asanlaşdıracaq. İçməli su, sanitar qovçaqların və irriqasiya sistemlərinin bərpası məsələsi isə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına və növbəti mərhələdə iqtisadi cəhətdən ev təsərrüfatlarının canlanmasına səbəb olacaqdır. Nəticədə bunu demək olar ki, minimum yaşayış səviyyəsinin təminatı ilkin sosial-iqtisadi inkişafın təzahürüdür. İlkin sosial-iqtisadi inkişafın vacibliyi münaqişə sonrasında insanların mərhələli formada həmin ərazilərə yerləşdirilməsinə və yardım asılılığından qısa müddətdə azad olmalarına səbəb olacaqdır. Belə ki, səhiyyə, təhsil və telekommunikasiya fəaliyyəti həyata keçirən müəssisələrin koordinasiyalı yenidənqurulması insanların adaptasiya prosesini də sürətləndirəcəkdir. Bir-biri ilə paralel formada sakinlərin məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə kiçik və orta bizneslərin dəstəklənməsi, ev təsərrüfatlarının inkişafına gətirib çıxaracaq addımların sayının artırılması məqsədəuyğun olacaqdır. Bununla yanaşı, iqtisadi dirçəlməyə səbəb olacaq bank və turizm sahələrində də mühüm addımlar atılmalıdır diqqət göstərilməlidir. Nəhayət, Kəlbəcər-Laçın və Yuxarı Qarabağ bölgələrinin gəlirli sahələrinin dirçəlməsinə və inkişaf etdirilməsinə ehtiyac vardır. Maliyyə qaynaqlarının çoxşaxəlililyi, sahələr üzrə maliyyə mənbələrinin

qoyuluşu konfliktdən sonra yenidən qurulmaya ehtiyac duyulan sektorların da bir o qədər sürətli canlanması mənasına gəlir. Sektorlar üzrə aparılan araşdırmalarda qlobal səviyuəli qurumlar, qeyri-hökümət təşkilatları, dövlət orqanları, özəl sektor, vətəndaş cəmiyyətləri və s. kimi orqanlar münaqişədən sonrakı müddətdə bölgələrin bərpasında maraqlı tərəflər olaraq çıxış edirlər. Həmin təşkilatların səlahiyyətlərinə müvafiq olaraq maliyyənin cəlb olunması ən mühüm məsələlərdən olmalıdır (Vəliyev V., 2021).

Düşmən işğalından azad olunmuş yerlərdə ən başlıca məsələlərdən biri də, həmin bölgələrdə həyata keçiriləcək investisiya layihələrinin düzgün dəyərləndirilməsidir. İnvestisiya fəaliyyətinin tədqiq olunmasında mühüm məqsədlərdən biri investisiya layihələrinin təhlili və həmin layihələrin səmərəlilik dərəcəsinin müəyyənləşdirilməsi yolu ilə ən optimal istiqamətin seçilməsidir. İnvestisiya layihəsi kapital qoyuluşunun səmərəliliyinin, onun müddəti və həcminin iqtisadi baxımdan əsaslandırılmasıdır. İnvestisiya layihələrinə Respublika qanunvericiliyinə müvafiq olaraq işlənib hazırlanmış və müəyyənləşdirilmiş qaydada təsdiq olunmuş mühüm layihə sənədləri də aid edilir. İnvestisiya layihələrinin məzmun və forma etibarilə çox fərqli olması mümkündür. İstənilən bir investisiya layihəsinə maliyyə vəsaiti yönəltmədən əvvəl, həmin layihə, ümumi olaraq yoxlanılmalıdır. Bu yoxlama nəticəsində layihənin səmərəliliyi təsdiq olunmalı, həmçinin, onun kommersiya, maliyyə, texniki, ekoloji və sosial cəhətdən məqsədəuyğunluğu dəyərləndirilir. İnvestisiya layihələrinin qiymətləndirilməsi zamanı aşağıdakıların müəyyənləşdirilməsi zəruridir:

- investisiya layihəsinin həyata keçirilməsinin mümkünlüyü;
- investisiya layihəsinin həyata keçirilməsinin tam səmərəliliyi və onun mütləq səmərəliliyinin təsdiq edilməsi
- investisiya layihəsinin müqayisəli səmərəliliyinin təhlili

İnvestisiya layihələrinə maliyyə resurslarının cəlb edilməsi haqqında qərarın qəbul olunması zamanı inflyasiya səviyyəsi, mövcud qeyri- müəyyənliklər və ya risk və həmçinin maliyyə resurslarının alternativ şəkildə istifadəsinin mümkünlüyü diqqətdə saxlanılmalıdır. Investisiya layihələrinin məqsədəuyğunluğunun təhlili bir

neçə mərhələdə həyata keçirilir. Ilk mərhələdə investisiya layihəsinin rentabellik dərəcəsi bank faiz dərəcəsinin orta səviyyəsi ilə müqayisə olunur. Bu kimi müqayisənin başlıca məqsədi maliyyə vəsaitinin daha əlverişli alternativ istifadə yolunun tapılmasıdır. Əgər layihənin rentabellik dərəcəsi bank faiz dərəcəsinin orta səviyyəsi ilə müqayisə olunduqda aşağı qiymət alınırsa, o halda həmin investisiya layihəsindən imtina edilməlidir. Çünki maliyyə resurslarının yalnızca bank depoziti olaraq yönəldilməsi daha məqsədəuyğundur. Növbəti mərhələdə investisiya layihəsinin rentabellik dərəcəsi ölkənin hazırki orta inflyasiya səviyyəsi ilə müqayisə edilir. Bu müqayisədə başlıca məqsəd inflyasiyanın ortaya çıxara biləcəyi maliyyə itkilərinin minimum səviyyəyə endirilməsidir. Ölkədə mövcud inflyasiyanın orta səviyyəsi investisiya layihəsinin rentabellik dərəcəsindən yüksək olarsa, bu halda investisiya kapitalı zamanla öz dəyərini itirəcək. Növbəti olaraq, investisiya layihələri tələb edilən investisiyaların həcminə uyğun olaraq müqayisə olunur. Burada başlıca məqsəd kredit resurslarına olan tələbatın minimum səviyyəyə endirilməsi və daha az kapitaltutumlu investisiya layihəsinin seçilməsidir. Növbəti olaraq investisiya layihələrinin seçilmiş rentabellik göstəricilərinə uyğun qiymətləndirilməsi aparılır. Burada əsas məqsəd rentabellik göstəricilərinə uyğun olaraq investisiya layihə variantının seçilməsidir. Növbəti mərhələdə investisiya layihəsinin yerinə yetirilməsi ilə əldə olunancaq maliyyə gəlirlərinin illik stabilliyinin qiymətləndirilməsi həyata keçirilir. Burada istifadə edilən qiymətləndirilmə göstəriciləri çox fərqlidir. İnvestoru həm investisiya layihəsindən qazanılacaq gəlirin illər üzrə bərabər bölüşdürülməsi, həmçinin də illər üzrə getdikcə atması maraqlandıra bilər (Əhmədov M., 2021).

İnvestisiya layihələrinə maliyyə resurslarının cəlb edilməsi haqqında qərarın qəbul olunması zamanı inflyasiya səviyyəsi, mövcud qeyri- müəyyənliklər və ya risk və həmçinin maliyyə resurslarının alternativ şəkildə istifadəsinin mümkünlüyü diqqətdə saxlanılmalıdır. Investisiya layihələrinin məqsədəuyğunluğunun təhlili bir neçə mərhələdə həyata keçirilir. Ilk mərhələdə investisiya layihəsinin rentabellik dərəcəsi bank faiz dərəcəsinin orta səviyyəsi ilə müqayisə olunur. Bu kimi müqayisənin

başlıca məqsədi maliyyə vəsaitinin daha əlverişli alternativ istifadə yolunun tapılmasıdır. Əgər layihənin rentabellik dərəcəsi bank faiz dərəcəsinin orta səviyyəsi ilə müqayisə olunduqda aşağı qiymət alınırsa, o halda həmin investisiya layihəsindən imtina edilməlidir. Çünki maliyyə resurslarının yalnızca bank depoziti olaraq yönəldilməsi daha məqsədəuyğundur. Növbəti mərhələdə investisiya layihəsinin rentabellik dərəcəsi ölkənin hazırki orta inflyasiya səviyyəsi ilə müqayisə edilir. Bu müqayisədə başlıca məqsəd inflyasiyanın ortaya çıxara biləcəyi maliyyə itkilərinin minimum səviyyəyə endirilməsidir. Ölkədə mövcud inflyasiyanın orta səviyyəsi investisiya layihəsinin rentabellik dərəcəsindən yüksək olarsa, bu halda investisiya kapitalı zamanla öz dəyərini itirəcək. Növbəti olaraq, investisiya layihələri tələb edilən investisiyaların həcminə uyğun olaraq müqayisə olunur. Burada başlıca məqsəd kredit resurslarına olan tələbatın minimum səviyyəyə endirilməsi və daha az kapitaltutumlu investisiya layihəsinin seçilməsidir. Növbəti olaraq investisiya layihələrinin seçilmiş rentabellik göstəricilərinə uyğun qiymətləndirilməsi aparılır. Burada əsas məqsəd rentabellik göstəricilərinə uyğun olaraq investisiya layihə variantının seçilməsidir. Növbəti mərhələdə investisiya layihəsinin yerinə yetirilməsi ilə əldə olunancaq maliyyə gəlirlərinin illik stabilliyinin qiymətləndirilməsi həyata keçirilir. Burada istifadə edilən qiymətləndirilmə göstəriciləri çox fərqlidir. İnvestoru həm investisiya layihəsindən qazanılacaq gəlirin illər üzrə bərabər bölüşdürülməsi, həmçinin də illər üzrə getdikcə atması maraqlandıra bilər (Əhmədov M., 2021).

Sahibkarlığa dəstək üçün aşağıdakı məsələlərə diqqət artırılmalı və həlli tezliklə həyata keçirilməlidir:

• Bölgənin başlıca olaraq infrastrukturu bərpa olunmalı, yollar salınmalı, kommunal xətlər çəkilməli və bunlarla yanaşı sakinlərin yaşayışına lazımi minimum infrastruktur layihələri həyata keçirilməlidir;

• Sakinlərin geri qaytarılması məsələsi sürətlənməli və yaşayış təhlükəsizliyi təmin olunmalıdır;

• Bölgə ehtiyatlarından istifadə imkanları investorların istifadəsi üçün açıq olmalıdır;

• Bölgəyə investisiya qoyacaq olanlar 10 il ərzində vergidən azad olmalıdır;

• İstehsal layihələri üçün ehtiyac duyulan xammaların, avadanlıqların və ya müəyyən inventarların çatdırılması zamanı gömrük rüsumları ləğv olunmalıdır;

• Ölkə əhəmiyyətli layihələrin özəl müəssisələr ilə birlikdə həyata keçirilməlidir;

• Dövlət əhəmiyyətli fondlardan və dövlət büdcəsindən investorlar üçün xüsusi subsidiyalar ayrılmalıdır;

• Bizneslərin qurulması ilə əlaqədar səmərəli biznes ortamı yaradılmalıdır;

• Xarici yatırımların birbaşa yönəldilməsi ilə bağlı dövlət zəmanəti formalaşdırılmalıdır;

• hər bir investor üçün eyni fürsətlər və imkanlar formalaşdırılmalıdır;

• Qanunvericiliklə qeydə alınmış sığortalanma prosesləri inkişaf etdirilməlidir;

• Dövlət nəzarətinin optimallaşdırılması məsələsi həyata keçirilməlidir;

• Xarici kapitalla bağlı, xüsusilə də valyuta əməliyyatlarının aparılması ilə əlaqədar müvafiq qanunvericilik yaradılmalıdır.

Hər birimiz bilirik ki, kiçik və orta biznesin və ya ümumilikdə sahibkarlığın inkişafı hər zaman ölkə başçısının rəhbərlik ilə birgə həyata keçirdiyi inkişaf strategiyasının mərkəzində olmuş və ötən illər həmin sahədə qəbul olunmuş məqsədli dövlət proqramları daxilində sistemli tədbirlər həyata keçirilmişdir. Sahibkarların cəmiyyətimizdə rolu artmış və onlar iqtisadi islahatlar kursunun fəal dəstəkləyici faktoruna çevrilmişdir. Kiçik və orta biznesin inkişafına zəmin yaratmaq və onu dəstəkləmək üçün əsası qoyulan KOBİA, heç şübhəsiz ki, düşmən işğalından azad edilən bölgələrimizdə müsbət nəticələrini göstərəcəkdir.

Azərbaycan Respublikasında KOBİA-ın əsasının qoyulması ölkə başçısı tərəfindən həmin sahədə həyata keçirilən institusional islahatların müasir dalğası olmaqla bərabər, mövcud inkişaf səbəblərindən irəli gəlmiş və bu sektorun müasir

tələblər səviyyəsinə yüksəldilməsi, orta və kiçik biznes sektorunun inkişafı ilə əlaqədar əsaslı dəyişikliklərə səbəb olacaq problemləri özündə ehtiva etmişdir.

2-ci Qarabağ müharibəsində qazanılan zəfər və torpaqlarımızın düşmən işğalından azad olunması da iqtisadi sahəyə aid olan hər bir dövlət qurumu qarşısında yeni öhdəliklər gətirməklə bərabər, ölkədə biznesin inkişaf ilə bağlı müasir mənbələr açmış oldu. Hər birimiz bilirik ki, Qarabağ bölgəsi zəngin faydalı və təbii sərvətlərə sahib bir bölgədir. Regionun kənd təsərrüfatı, turizm, xalq sənətkarlığı, aqrar-emal və s. kimi ənənəvi iqtisadi sahələrin yenidən dirçəldilməsi və xarici bazarlara çıxarılması böyük imkanlar vəd edir. Bunlarla yanaşı, Naxçıvan ilə Azərbaycan arasında Qarabağdan keçən quru nəqliyyat dəhlizinin formalaşması sadəcə Azərbaycan üçün deyil, ümumilikdə regionun iqtisadi konyukturası üçün əhəmiyyətli dəyişiklik və yenilik olacaqdır.

Agentlik müharibənin ilk günlərindən ermənilərin hərbi təxribatı barədə gerçəkləri xarici partnyor təşkilat və qurumlar yolu ilə qlobal ictimaiyyətə obyektiv çatdırmış, sahibkarlara dəymiş ziyanın əhatə dairəsinin müəyyənləşdirilməsi və aradan qaldırılması üçün konkret işlər həyata keçirmişdir. Agentliyə qarşı tərəfin hərbi təxribatı nəticəsində əkinçilik, heyvandarlıq, ictimai iaşə, ticarət və istehsal sahələrində fəaliyyət göstərən 300-dən çox sahibkarlıq subyektinə zərər vurulması barədə informasiya daxil olmuşdur. Həmin məlumatlar xüsusilə Naftalan və Gəncə şəhərlərini, Füzuli, Tərtər, Beyləqan, Bərdə, Cəbrayıl, Ağcabədi və Ağdam rayonları da daxil olmaqla, ümumilikdə 9 şəhər və rayonu ehtiva etmişdir. Düşmənin hərbi təxribatı ilə əlaqədar olaraq sahibkarlıq subyektlərinə vurulmuş zərərin müəyyən edilməsi üçün agentlik tərəfindən müəyyən informasiyaların yığılması və emalı, vurulan ziyanın yerində dəqiqləşdirilməsi yolunda işlər davam etdirilir (KOBİA icmal, 2020).

Ölkəmizin düşmən işğalından azad edilmiş bölgələri yüksək investisiya və iqtisadi potensiala sahibdir. Azərbaycanın ümumi inkişaf strategiyası daxilində davamlı inkişaf planları və 4-cü sənaye inqilabının normalarına uyğun, azad olunmuş bölgələrin yerli xüsusiyyətləri, ehtiyatlar və gələcək perspektivlər diqqətdə saxlanılmaqla, ölkə

iqtisadiyyatına inteqrasiya olunacaq. Qarabağ bölgəsinin inkişafına və yenidən dirçəlməsinə KOBİA da öz töhfəsini vermək niyyətindədir.

KOBİA işğaldan azad edilmiş bölgələrimizdə biznesin bərpası üçün dövlətin müəyyən edəcəyi strategiyaya müvafiq, uzun və ortamüddətli məqsədlərində müəyyən dəyişikliklər edməyi planlaşdırır. Düşmən işğalından azad edilmiş bölgələrdə sahibkarlıq fəaliyyətinin təşkili, xarici və milli yatırımların cəlb dilməsinə dəstək, kiçik və orta biznes sektorunun yaradılması Agentliyin strateji planlarının əsas istiqamətlərindən olacaq. Qarabağ ərazisində kiçik və orta səviyyəli sahibkarlığın formalaşdırılması və inkişafı, sosial sahibkarlıq təşəbbüslərinə dəstək, biznesin təlimlərə, dövlət və məsləhət xidmətlərinə, güzəştli maliyyə htiyatlarına çıxışının təmin olunması məqsədilə Kiçik və Orta Biznes evinin, Kiçik və Orta Biznes inkişaf mərkəzlərinin, “Kiçik və Orta Biznes Dostu” şəbəkəsinin fəaliyyətinin təmin edilməsi də Agentliyin gələcək planları siyahısındadır.

Bunlarla yanaşı, işğaldan azad olunmuş bölgələrdə biznesin inkişafı məqsədilə kompleks tədbirlərlə bağlı təkliflərin hazırlanması yönündə də işlər aparılır. Qarabağ bölgəsində müvafiq lazımi infrastrukturun yaradılması, biznesin maliyyələşməsi potensialının təmin olunması, biznesə dəstək mexanizmlərinin tətbiq olunması, səmərəli biznes mühitinin formalaşdırılması və s. başlanğıc mərhələdə iqtisadiyyatın bərpası üçün qarşıda dayanan başlıca mühüm vəzifələr hesab edilə bilər.

Qarabağ bölgəsində imtiyazlı biznes formasının və kommunal subsidiyaların tətbiqi həmin bölgədə yeni sahibkarlıq subyektlərinin formalaşmasına və həmçinin, sahibkarların buraya cəlb olunmasına müəyyən mənada töfhə verə bilər. Bununla yanaşı, işğaldan azad olunmuş bölgələrdə infrastrukturun bərpası və yenidən qurulması yönündə məqsədli fondların yaradılmasının mümkünlüyü də diqqətə alına bilər. Qlobal imic aspektindən faydalı ola biləcək bu fikir, həmçinin, bölgədə yerinə yetirilə biləcək potensial dövlət-özəl partnyoluğu layihələrində investorlar üçün cəlbediciliyi yüksəltmək üçün dövlət tərəfindən iştirak payı məqsədilə də istifadə oluna bilər.

Şuşa şəhərində Agentliyin vasitəçiliyi ilə ilk çörək və şirniyyat məhsulları obyekti fəaliyyətə başlayıb. Həmin müəssisə eyni zamanda, Şuşada fəaliyyətə başlamış ilk sahibkarlıq subyektidir. “Azcake” MMC-yə aid istehsal sektorunun formalaşdırılması və fəaliyyətə başlaması üçün lazımi vasəitlərin alınmasında və müəssisənin əsasının qoyulmasında Agentlik tərəfindən dövlət dəstəyi təmin olunub. Burada istehsal edilən şirniyyat və çörək məmulatları əsgər və zabitlərimizə əvəzsiz formada verilir.

Nəticədə, qeyd etmək istərdim ki, Qarabağ bölgəsində qısa və ortamüddətli iqtisadi inkişaf və sahibkarlıq fəaliyyətinin bərpası yönündə dövlətin həyata keçirəcəyi genişhəcmli tədbirlərin, Qarabağ bölgəsinin yenidən çiçəklənməsinə, bölgənin iqtisadi imkanlarının ölkənin iqtisadi potensialında xüsusi yer tutmasına və qlobal aspektdə tanınacaq yeni Qarabağ marka adının formalaşdırılmasına səbəb olacaq.

Düşmən işğalından azad olunmuş bölgələrdə şəxsi biznesini qurmaq istəyən sahibkarlar və xarici yatırımçılar biznes layihələrini Agentliyə təqdim edə bilərlər. KOBİA-a müraciət etmiş sahibkarlara həmin ərazilərin investisiya və iqtisadi potensialı barədə ətraflı informasiya, peşəkar məsləhət xidməti, uyğun dövlət orqanları ilə əlaqələndirmə, yerli partnyorların tapılması yönündə xidmət və dəstək göstəriləcəkdir (KOBİA icmal, 2020).

# III FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BİZNES İNFRASTRUKTURUNUN FORMALAŞDIRILMASI VƏ İQTİSADİ ƏHƏMİYYƏTİNİN TƏHLİLİ

## 3.1. İşğaldan azad olunmuş ərazilərə xarici şirkətlərin marağı və onların təcrübəsi ilə biznes infrastrukturunun formalaşması

Dünya tarixində bir çox ölkələr müharibə və ya digər səbəbdən iqtisadiyyatı və infrastrukturu zərər çəkən ərazilərinin yeridən qurulması məsələsi ilə üzləşmişlər. Dünya müharibələri və lokal müharibələrin nəticəsində günümüzdə inkişaf etmiş dövlətlərin əksəriyyəti belə vəziyyətlə qarşılaşmışlar. Diqqət mərkəzində saxlanılmalı məsələrdən biri də təbii fəlakətlərin ortaya çıxardığı problemlərdir. İstər hərbi münaqişələr, istərsə də təbiət hadisələri ucbatından dağılan zərər görən infrastrukturun bərpasında təcrübəli olan ölkələr Azərbaycan üçündə azad olunmuş torpaqlarının reabilitasiyası mərhələsində örnək ola bilər. Buna baxmayaraq, ölkəmizin qaytarılan torpaqlarında normal həyata dönüş, digər ölkələrin əksəriyyətinə nisbətdə daha mürəkkəb olması gözlənilir, belə ki, məsələ təkcə dağıdılmış infrastrukturun yenidən yaradılmasından və burada qanuni iqtisadi fəaliyyətin bərpasından ibarət deyil və əslində daha genişmiqyaslıdır. Hazırda Qarabağda yaşayan icmanın (daha dəqiq desək, erməni əsilli əhalinin) ölkədəki siyasi, iqtisadi və mədəni həyatına inteqrasiyasını təmin etməyə yönəlmiş tam bir proqram hazırlamaq və reallaşdırmaq lazım gələcəkdir (Müzəffərli N, İsmayılov E. 2010).

Bundan əlavə qeyd etmək lazımdır ki, müharibədən sonrakı illərdə Yaponiya, Qərbi Avropa ölkələri, Almaniya kimi ölkələrdə maliyyə, ərzaq və başqa ehtiyaclarını qarşılayan müxtəlif istiqamətli yardımlar olunmuşdur. Böyük Britaniya, Fransa, Almaniya, İtaliya və Belçikanın bəzi qabaqcıl şəhərləri dünya müharibələrindən sonra dağıdılmışdı. Qərbi Avropada zərər görən və dağıdılan ərazilərin bərpası və yenidən qurulmasının maliyyələşdirilməsinə yardım məqsədilə 1948-ci ildə Marşal proqramı qəbul olundu. Bu proqram İkinci Dünya Müharibəsindən sonra 15 milyard dollardan

artıq vəsaitlə Qərbi Avropa ölkələrinə yardım edən ABŞ proqramı idi. Bu vəsait Fransa, İngiltərə, Hollandiya, Belçika, Qərbi Almaniya və Norveç daxil olmaqla 16 Avropa ölkəsi arasında bölüşdürüldü.

Son dövrlərdə müharibələrin yaratdığı dağıntıların bərpasının maliyyələşdirilməsinə yardım edən ölkə və qurumların artımı müşahidə edilir. Dünya Bankının 2011-ci il hesabatında münaqişə və silahlı toqquşmalar zəminində dağıdılmış və zəifləmiş ölkələrə xarici maliyə dəstəyi 1996-1998-ci illərdə 29 faizdən 2006-2008-ci illərdə 41 faizə qədər artmışdır. İsveç hökuməti ,Beyrut şəhərindəki hərbi əməliyyatlar bitəndən sonra paytaxtda bir konfransa sahiblik etməklə 900 milyon dollar dəyərində yardım toplaya bilmişdir (https://vergiler.az/news/economy/10954.html, 2020).

Artıq qeyd edildiyi kimi, dağıdılmış ərazilərin reabilitasiyasında ayrı-ayrı ölkələr və ya müxtəlif beynəlxalq təşkilatların böyük təcrübəsi var. Qlobal sferada bu sahə üzrə mütəxəssis kimi yaxşı tanınan ekspertlərin nəzəri və təcrübi bilik və bacarıqlarından faydalanaraq, konfliktsonrası reabilitasiyanın effektiv həyata keçirilməsi ən optimal variant hesab edilə bilər. Həyata keçiriləcək dövlət proqramının ilkin mərhələsində və ya sonradan onun təkmilləşdirilməsi müddətində ixtisaslaşmış dünya agentliklərini təmsil edən ekspertlərlə əməkdaşlıq edilməsi labüddür ki, bu da beynəlxalq maliyyə qurumlarının və özəl şirkətlərin növbəti illərdə praktik reabilitasiya zamanı gedən proseslərə operativ şəkildə cəlb olunmasına zəmin yaratmış olacaqdır. Aydın məsələdir ki, işğaldan azad olunmuş ərazilərin yenidən iqtisadi dövriyyəyə qaytarılması yalnız öz hesabımıza çətin proses olduğundan ölkəmizə maraqlı şirkətlərin layihələrinə yer verilməsi həmçinin daha tanınan şirkətlərin bu məsələyə təşviqi əsas prioritetlərdəndir.

Şanlı ordumuzun qələbəsi ilə başa çatan ikinci Qarabağ müharibəsi ərazilərimizin işğaldan azad edilməsi ilə yanaşı, erməni qəsbkarlarının vurduğu dağıntıların tamamilə aşkar ediilməsinə gətirib çıxardı. Bir daha bəlli oldu ki, otuz illik müddətdə ermənilər Azərbaycan ərazilərində genişmiqyaslı dağıntılar həyata keçirib, yaradılmış infrastrukturu demək olar ki, tamamilə yararsız hala gətirmişlər. Əvəzində özlərinə belə

bir infrastruktur formalaşdırmayıblar. Xüsusilə Ağdam zəminində bunun şahidi olduq. Belə ki, həmin əraziyə gedən jurnalistlər Ağdam barəsində , Qafqazın Xirosiması kimi yazmışdılar.

BMT-nin paylaşdığı rəqəmlərə görə, işğal nəticəsində Azərbaycana dəyən iqtisadi ziyan 53,5 milyard Amerika dollarıdır (bundan sonra dollar). İşğal zamanı Azərbaycana bütün istiqamətlərdə dəymiş ziyanı hesablasaq, görərik ki, dəymiş ziyan daha çoxdur. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən əldə olunan məlumatlara uyğun olaraq, işğal zamanı Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə bütövlükdə 265 milyard ABŞ dolları məbləğində ziyan dəymişdir.

Hərbi Prokurorluğun apardığı hərtərəfli məhkəmə ekspertizasının ilk hesablamalarına əsasən, bütün istiqamətlərdə dəyən maddi ziyanın ümumi məbləği 819 milyard dollardır . Dağıntının mürəkkəbliyi və miqyası işğaldan azad edilmiş ərazilərin bərpası prosesini çətin və uzunmüddətli prosesə çevirir. Bu səbəbdən müxtəlif iqtisadi və sosial sahələrdə bərpa prosesi həyata keçirilməlidir. Bunu nəzərə alaraq, İkinci Qarabağ müharibəsi başa çatdıqdan həmən sonra işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafı planının hazırlanmasına dair sərəncam verildi və Böyük Qayıdış proqramı əsasında reabilitasiya prosesinə başlanıldı.

2021-ci il büdcəsindən bərpa prosesi üçün ilk olaraq 2,2 milyard dollar nəzərdə tutulub. Reabilitasiya prosesi bir neçə mərhələdə baş verəcək. Birinci mərhələdə büdcədən ayrılan vəsait iki əsas məqsədə infrastrukturun yaradılması və kommunal xidmətlərin mövcudluğunun təminatına cəlb ediləcəkdir. Növbəti mərhələdə özəl və xarici investisiyaların cəlbi məsələsinə daha çox diqqət ediləcəkdir . Ümumilikdə, bu ərazilərin əsaslı şəkildə bərpası və həmin ərazilərdə müasir infrastrukturun formalaşdırılması Qarabağın inkişafının əsas strateji prioritetlərindəndir. Çünki bərpa prosesi olmadan bu ərazilərin sosial-iqtisadi inkişafının təminatı qeyri-mümkündür.

Yenidənqurma və reabilitasiya prosesinin həyata keçirilməsi Azərbaycanın ümumi iqtisadi inkişafına təkan verməklə, yeni iş yerlərinin yaradılmasına zəmin yaradacaqdır. Azad edilmiş ərazilərdə texnoloji yenilikləri tətbiq etmək daha asandır,

bunun əsas səbəbi infrastrukturun tamamilə dağıdılması və ərazilərin sıfırdan bərpasına ehtiyac olmasıdır.Bu səbəbdən Qarabağın yenidən qurulması prosesində texnoloji yeniliklərdən istifadə edilməsi, müasir standartlara cavab verən infrastrukturun yaradılması əsas məqsədlərdən biridir. Gələcəkdə bu ərazilərin bərpası nəticəsində əldə olunan təcrübə digər rayonlarda da tətbiq oluna bilər.

Ümumi olaraq, yenidənqurma ilə əlaqəli əsas götürülmüş istiqamətlər aşağıdakılardır:

- Yenidənqurmanın səmərəliliyi saxlanmaqla reallaşdırılması
- Yeni innovasiya və imkanlara uyğun modelin qurulması
- Həmin ərazilərin texnoloji cəhətdən inkişaf etdirilməsi
- Dünyaca tanınan texnologiya sahəsi şirkətlərinin bu işə təşviq etdirilməsi
- Bölgənin "Yaşıl Enerji" zonasının yaradılması (Bağırov O.,2020).

Qarabağın bərpasının çox istiqamətli olduğunu nəzərə alaraq, biz başqa xalqların təcrübəsindən yararlanmaq məqsədilə müxtəlif qurumlara maliyyə dəstəyi üçün müraciətlər yönləndirə bilərik.İşğaldan azad edilmiş ərazilər üçün xarici özəl şirkətləri həmin ərazilərin yenidən qurulması və iqtisadi dirçəlişinə cəlb etmək vacibdir.Beləliklə, xarici şirkətlərə və sərmayəçilərə azad edilmiş ərazilərin bərpasına nəinki icazə verilə bilər, əksinə, dövlət tərəfindən hər cür həvəsləndirilməlidir. Nəzəri mərhələdə onlar bütün növ reabilitasiya işlərinə cəlb oluna bilərlər, lakin realda onların cəlb olunduğu layihələrin əhatə dairəsi yerli və özəl şirkətlərdən daha məhduddur. Münaqişədən sonrakı yenidənqurma layihələri ilə bağlı siyasi risklər bəzi xarici investorlar üçün onların qəbul etdiyindən daha böyük ola bilər. Münaqişədən sonrakı belə bölgələrə adətən iki növ xarici sərmayədar gəlir. Bunlardan ilki, çaşqınlıqdan istifadə edərək, niyyətləri o qədər də aydın olmamaqla ,dövlət resurslarından və donorlardan tez və asanlıqla varlanmaq üçün hərəkət edənlərdir. İkincisi isə, beynəlxalq səviyyədə tanınan və hörmət edilən böyük şirkətlərdir. Belə şirkətlərin təkcə brend adı belə siyasi risklərdən və digər xarici (biznes) risklərdən bir növ "qalxan" rolunu oynayır. Azərbaycan təbii ki, daha çox bu tiprkətlərlə ilə əməkdaşlığa çalışacaq, lakin

bu halda nəzərə almaq lazımdır ki, belə iri şirkətlər üçün yalnız milyonlarla ölçülən irimiqyaslı layihələr kommersiya istəyi olacaqdır.

Bu fikirlərə uyğun olaraq deyə bilərik ki, ölkəmizə maraq göstərən xarici şirkətlərin iştirak edəcəyi sahələr, aşağıdakılar olacaq:

• bir sıra təminatı sistemlərinin (su və enerji sisteminin) yenidənqurulması;

• nəqliyyatin yenidən bərpası (dəmiryol ,avtomobil,hava);

• təzə telekommunikasiya infrastrukturunun qurulması;

Yerli özəl müəssisələr kimi, xarici şirkətlər də münaqişədən sonrakı reabilitasiyada həm hökumətin birbaşa dəvəti ilə (yaxud birbaşa hökumətə), həm də tenderlər vasitəsilə iştirak edə bilərlər. Lakin onların işğaldan azad edilmiş ərazilərin iqtisadi dirçəlişində iştirakı yerli şirkətlərdən daha israrlı, ardıcıl və balanslı fəaliyyət tələb edir. Məsələ burasındadır ki, əcnəbilərdən fərqli olaraq yerli sahibkarlar işğal altında olan torpaqların azad edilməsi məsələsini ictimai rəyin gündəmində saxlayan və aktuallığını qoruyan ictimai-siyasi şəraitdə fəaliyyət göstərirlər. Bu ərazilərin bir qədər üstüörtülü formada da olsa, gələcəkdə bərpa olunacağı və dirçələcəyi fikri ölkənin informasiya bazasına hakimdir. Xarici sərmayədarlar üçün Qarabağın və ətrafının azad olunması istənilən formada sürpriz olacaq, çünki regionda gedən hərbi-siyasi prosesləri onların gündəlik izləməsi məntiqə uyğun deyil və əslini düşünsək bunu onlardan heç kəs gözləyədə bilməz. Bərpa işlərinə xarici şirkətlərin cəlb edilməsi planlaşdırılarkən bu xüsusiyyət diqqətə alınmalıdır.

Vəziyyətin əsası bundan ibarətdir ki, münaqişənin həlli ilə bağlı siyasi qərarlar qəbul edilməmişdən xeyli əvvəl təbliğat kampaniyasına (yəni, münaqişədən sonrakı reabilitasiyaya əcnəbi şirləri cəlb etmək tədbirləri) başlamaq mənasız və faydasızdır ,lakin bundan sonra gecikdirmək yolverilməzdir. Odur ki, xarici investorlarla iş planını (ilkin fəaliyyətlər zamanı) öncədən tərtib etmək gərəkdir. Planda xarici sərmayədarlar üçün ən cəlbedici ola biləcək sahələrin siyahısı, həyata keçirilməli olan konkret layihələr və bu layihələrin nə qədər tez və effektiv reabilitasiya oluna bilməsi baxımından Azərbaycan üçün prioritet istiqamətlər qeyd edilməlidir. Planın xüsusi bir

hisssəsi xarici şirkətlərin və investorların təşviq edilməsi üçün tədbirlərə ayrılacaqdır. Onların münaqişədən sonrakı yenidənqurmada iştirakının əsas məqsədi, şübhəsiz ki, etibarlı yüksək gəlir əldə etməkdir. Eyni zamanda, yeni azad edilmiş ərazilər onlar üçün yeni texniki ideyaları, idarə və kommersiya planlarını sınamaq üçün yaxşı platformaya çevrilə bilər.

Azərbaycanın artıq xarici investorları ölkəyə cəlb etmək üçün onlarla birbaşa işləmək təcrübəsi var. Məsələn, həm ölkə daxilində, həm də xaricdə müntəzəm (ildə bir neçə dəfə) biznes forumların keçirilməsi dövlət təcrübəsi münaqişədən sonrakı reabilitasiyaya tətbiq oluna bilər və çox faydalı ola bilər. Əlavə olaraq, bu halda bu forumlar daha xüsusi məqsədlər güdəcək, onları konkret sahədə konkret işlərin həyata keçirilməsinə dəvət edəcək (Müzəffərli N, İsmayılov E. 2010).

Xarici dövlətlərin və şirkətlərin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa işlərinin aparılmasına yüksək marağına uyğun olaraq, fərqli sahələrdə təkliflər irəli sürürlər. Dövlət rəhbərinin sözlərinə görə, bu ərazilərdə aparılan bərpa işlərində yalnız müharibə illərində Azərbaycanla vicdanlı mövqe tutmuş, dostluq münasibətləri göstərmiş ölkələr və həminn ölkə şirkətləri iştirak edə bilər. Beləki, yenidənqurma prosesinə bir çox xarici dövlətlər və onların şirkətləri investorlar artıq təşviq edilmişdir. Planlaşdırılan işlər ölkələr üzrə aşağıdakılardır: Məlumdur ki, Yenidənqurma prosesində ən sıx əməkdaşlıq müharibə illərində Azərbaycana ən böyük köməklik göstərən türk şirkətləri ilə qurulmaqdadır. Türkiyə şirkətlərinin iştirakı ilə həyata keçirilən layihələr arasında:

• Türk şirkəti olan "Kolin İnşaat" Əhmədbəyli–Füzuli–Şuşa magistralının tikintisində iştirak edir.

• Türkiyənin GOSB texnoparkı ilə İnnovasiya Agentliyi postkonflikt ərazilərdə ortaq texnoloji parkın salınması barəsində razılığa gəlmişdir.

• Ziraat Bank Şuşada filialını açmaq üçün rəhbərliyiə müraciətini bildirib.

• TÜMKİAD təşkilatı ərazilərimizə 50 milyon dollar investisiya qoymağı planladığını bildirib.

2020-ci ilin dekabrında İtaliyanın “Ansaldo Energia” şirkəti ilə Qarabağ regionunda dörd yarımstansiya üçün avadanlıqların tədarükünw ilə bağlı müqavilə imzalanıb. Müqavilə dəyəri 6 milyon olmaqla bərabər , gücü 110 kilovat olan bu stansiyalar Ağdam, Füzuli, Qubadlı və Kəlbəcər ərazisində yerləşir. Stansiyalar 2021-ci ilin iyun ayında istifadəyə buraxılmışdır.

Böyük Britaniya hökuməti də yenidənqurma prosesində iştirak etmək niyyətində olduğunu bildirmişdi. Britaniyalı investorların maraq dairəsinə texnologiya, “ağıllı” və “yaşıl” şəhər layihələri, enerji sənayesi, mədənçilik və minalardan təmizləmə sahələri daxildir. Artıq Azərbaycanda bir çox proseslərdə iştirak etmiş Böyük Britaniyada şirkəti “Anglo Asian Mining” postkonflikt ərazilərdə fəaliyyətini genişləndirmək arzusundadır. Bundan əlavə, Britaniya şirkətləri artıq Füzulidə minatəmizləmə, şəhərsalma və infrastrukturun inkişafı istiqamətindəki bir digər işlərdə iştirak edirlər.

Ərazilərimiin yenidənqurma prosesində iştirak etmə məqsədi olan ölkələrdən biri də Macarıstandır. Belə ki, bu yönümdə bir sıra işlər görülüb. Macarıstan Milli Bankı (Eximbank) torpaqlarımızın yenidənqurulmasında maraqlı olan macar şirkətləri üçün 100 milyon dollarlıq kredit imkanı yaratmışdır. Bundan əlavə, ölkə rəhbərliyi azad edilmiş ərazilərdə minaların təmizlənməsi üçün 25 min avro dəstək vermək istəyini bildirmişdir.

Macarıstanın Azərbaycandakı səfiri olan Viktor Sederkeni ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və Azərbaycanla əlaqələri daha da genişləndirmək niyyətində olduğunu, qarşılıqlı dostluğun hər zaman inkişaf etdiyini bildirib. O qeyd edib ki, Macarıstan şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə bərpa layihələrində iştiraka marağı artır.

Əlavə olaraq, İsrail, Britaniya, Yaponiya və İran şirkətləri də yenidənqurma layihələrinə sərmayə qoymaqda maraqlıdırlar. Ümumilikdə deyə bilərik ki, xarici şirkətlərin aktiv bərpa işlərinə cəlb edilməsi vacibdir. Çünki bu işlərinin miqyası böyükdür və təkcə yerli şirkətlərin dəstəyi ilə bərpa prosesini tez və asanlıqla başa

çatdırmaq çətin məsələdir. Eyni zamanda ölkəyə daxil olan xarici şirkətlərin həcmi və onların ərazilərimizin bərpasında iştirakı bir çox üstünlük yaradacaqdır.

Həmin şirkətlər özləri bərabər təzə ənənələr və müasir texnologiyalar gətirəcəklər. Bu da, yeni sahibkarlıq forması və ədalətli rəqabətə şərait yaradacaq. İşğaldan azad edilmiş ərazilərin böyük potensialı əsas verir ki, reabilitasiya prosesində maraqlı olan şirkətlərin miqdarı daha da artacaq. Bütün bunların nəticəsində görürük ki, Azərbaycan bu əraziləri ən inkişaf etmiş ərazilərindən biri kimi iqtisadi dövriyyəyə qatmağı özünə əsas prioritet seçmişdir. Burada atılmalı olan addımlardan biri də yerli əhalinin istək təkliflərinin nəzərə alınması məsələsidir (Bağırov O.,2020).

Tədqiqatın mövzusuna uyğun olaraq Google platforması üzərindən Qarabağ regionunda biznesin inkişaf istiqamətləri ilə bağlı bir qrup insanın iştirak etdiyi rəy sorğusu keçirilmişdir. Sorğu iştirakçılarının yaş aralıqları və fəaliyyətləri ilə aşağıdakı diaqramlarda tanış ola bilərsiniz.

**Qrafik 1:Respondentlərin hansı yaş aralığının nəticəsi**




**Mənbə**:Araşdırmanın nəticələrinə əsasən müəllifin hesablamaları

Qrafikdən də məlum olduğu kimi respondentlərin əksər hissəsi 18-25 yaş aralığındadır. Daha dəqiq isə 95% 18-25yaş,5 % isə 26-35 yaş aralığında olmuşdur. Növbəti qrafiklərdə bu aralıqda olan respondentlərin verdiyi cavablarla tanış olacayıq.

**Qrafik 2: Respondentlərin işlədiyi fəaliyyət sahəsinin nəticələri**




**Mənbə**:Araşdırmanın nəticələrinə əsasən müəllifin hesablamaları

Sorğu iştirakçıların "Sizcə Qarabağda daha çox hansı sektora yer verilməlidir?" sualına olan cavabları aşağıdakı diaqramda təsvir edilmişdir.

**Qrafik 3: Respondentlərin "Sizcə Qarabağda daha çox hansı sektora yer verilməlidir?" sualının nəticələri**




**Mənbə**:Araşdırmanın nəticələrinə əsasən müəllifin hesablamaları

Bu sualın cavabı olaraq insanların mütləq əksəriyyəti dövlət və özəl sektorun bir-birinə inteqrasiya edilmiş şəkildə fəaliyyətinin tərəfdarıdır. Bunun bir sıra səbəbləri vardır. Əvvəla, bazar iqtisadiyyatı şəraitində hər bir milli iqtisadiyyatın inkişafı üçün özəl investisiyanın ÜDM-də rolunun yüksək əhəmiyyətə malik olması danılmaz faktdır. Lakin ölkədəki təbii ehtiyatların istismarının tamamilə özəl şirkətlərə verilməsi də gələcək dövr üçün bir sıra problemlər yarada bilər.

Keçirilmiş sorğuda respondentlərin "Sizcə işğaldan azad olunan ərazilərdə hansı istehsal sahələri inkişaf etdirilməlidir?" sualına verdiyi cavablar növbəti qrafikdə öz əksini tapmışdır.

**Qrafik 4: Respondentlərin "Sizcə işğaldan azad olunan ərazilərdə hansı istehsal sahələri inkişaf etdirilməlidir?" sualına verdiyi cavabın nəticələri**




**Mənbə**:Araşdırmanın nəticələrinə əsasən müəllifin hesablamaları

Bu sual üzrə alınan cavabları təhlil etsək, alınan faizlərin bir-birinə yaxın olduğunu görə bilərik. Formalaşan hər iki fikirin səbəblərini tədqiq etdikdə, ilk növbədə qeyd olunmalıdır ki, bölgənin işğalından əvvəlki iqtisadi fəaliyyətini nəzərə alan sorğu iştirakçıları ənənəvi istehsalın inkişaf etriilməsinin tərəfdarıdır. Digər qrup isə xidmət sahələrinin inkişafının lehinə cavablarını təqdim etmişdirlər ki, bunun da səbəblərində başlıcası texnologiyanın inkişaf etdiyi bir dövrdə xidmət sahələrinin gəlir gətirməsidir.

Hər iki halda ölkə iqtisadiyyatının müsbət inkişaf tendensiyası qeydə alınacaqdır. Belə ki, ənənəvi istehsal ilk olaraq ərzaq təhlükəsizliyini təmin edəcəkdir ki, qlobal aspektdən baxdıqda bu hər bir ölkənin prioritet məqsədidir. Başqa bir yandan xidmət sahələrinin inkişafında uğur əldə edilməsidə real perspektiv hesab oluna bilər ki, bu bölgənin coğrafi mövqeyinin əlverişliliyi ilə əlaqəlidir.

Tədqiqat üçün keçirilən sorğudan qeyd edilən növbəti sual "Sizcə işğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun qurulması üçün hansı şirkətlər cəlb olunmalıdır?" sualıdır ki, iştirakçıların cavabları aşağıdakı qrafikdə göstərilib.

**Qrafik 5: Respondentlərin Sizcə işğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun qurulması üçün hansı şirkətlər cəlb olunmalıdır?" sualına verdiyi cavabın nəticələri**




**Mənbə**:Araşdırmanın nəticələrinə əsasən müəllifin hesablamaları

Cavablardan belə nəticəyə gəlmək olar ki, respondentlərin çox hissəsi, yerli və xarici şirkətlərin ortaq fəaliyyətinin daha səmərəli olacağını düşünərək, birgə fəaliyyətin tərəfdarıdırlar. Buna nümunə olaraq, optimal variant kimi 1994-ci il 20 sentyabrda imzalanan "Əsrin Müqaviləsi" modelindəki kimi 20/50/80 prinsipinə oxşar sazişlər qurmaq olar.

Sorğuda qeyd edilən “Sizcə Qarabağda biznes mühitinin qurulmasında hansı ölkələrin şirkətlərinə yer verilməlidir?” sualına respondentlərin cavabları növbəti qrafikdə verilmişdir.

**Qrafik 6: Respondentlərin Sizcə işğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun qurulması üçün hansı şirkətlər cəlb olunmalıdır?” sualına verdiyi cavabın nəticələri**




**Mənbə**:Araşdırmanın nəticələrinə əsasən müəllifin hesablamaları

Cavablara nəzər salsaq, görərik ki, müxtəlif tendensiyalar müşahidə olunur. Çox seçimli cavablardan belə nəticəyə gəlmək olar ki, Türkiyənin yüksək pay faizinə malik olmasında istər milli oxşarlıq, istərsə də iqtisadi və siyasi arenada mövqeyi və dəstəyi əhəmiyyətli rol oynayıb. Digər cavablarda da ölkələrin müharibə dövründəki dəstəyinin və iqtisadi qüdrətinin nəzərə alındığını görə bilərik.

İnvestor kimi Qarabağda hansı sahəyə yatırım etmək istərdiniz? Sualının nəticələri aşağıdakı diaqramda göstərilib.

**Qrafik 7: Respondentlərin “İnvestor kimi Qarabağda hansı sahəyə yatırım etmək istərdiniz?” sualına verdiyi cavabın nəticələri**




**Mənbə**:Araşdırmanın nəticələrinə əsasən müəllifin hesablamaları

Çox seçimli sualın nəticələrin dəyişkən olmasının əsas səbəbi regionun inkişaf potensialının müxtəlif istiqamətlərdə olmasıdır. Burada işğaldan əvvəlki dövrdəki iqtisadi fəaliyyət sahələri nəzərə alınmaqla yanaşı, təbiətinin rəngarəgliyi və iqlimin əlverişliliyi həm aqrar yönümlü həm də müalicəvi, tarixi, rekreasiya turizminin potensialı nəzərə alınmışdır.

## 3.2. İşğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun formalaşmasına dövlət dəstəyi

Qazanılan şanlı zəfərdən sonra dövlətin qarşısına qoyduğu əsas məqsəd qaytarılan torpaqlarda iqtisadi və sosial həyatın canlanmasına nail olmaqdır. Əvvəla qeyd edilməlidir ki, bu mürəkkəb və daha çox zaman tələb edən proses olsa da bu regionun yüksək texnologiyalı inkişaf ərazilərinə çevrilməsi proqnozlaşdırılır. Bərpa prosesində effektiv nəticə almaq üçün “Koordinasiya Qərargahı” və bir neçə istiqamət üzrə 17 işçi qrupu təyin edilmişdir.

Görülən işlər arasında nəqliyyat layihələrinin ən əsası optimal magistral qovşaqlarının yaradılması ilk sıradadır. Münaqişənin ilkin dövrlərində təməli qoyulan ilk nəqliyyat layihəsi Tərtər şəhərini Suqovuşan və Talış kəndləri ilə birləşdirən yolların yenidən qurulması olmuşdur. Sözü gedən yolun uzunluğun 28,5km-dir və bu magistralların reabilitasiyasının ilkin mərhələsi artıq başa çatıb. Qarşıdakı mərhələdə Naftalan şəhərindən Talış kəndinə uzunluğu 22 km olan avtomobil yolunun bərpası da planlaşdırılır.

Daha bir vacib nəqliyyat proyekti isə uzunluğu 81,6 km olan Əhmədbəyli-Füzuli-Şuşa yoludur ki, ali baş komandan bu yolu “qələbəyə gedən yol” adlandırmışdır. Layihənin həyata keçməsi ilə paytaxtdan Şuşaya qədər məsafə 363km azalır. Qeyd edilən “Zəfər yolu”nun tikintisi üçün 29,4 milyard ABŞ dolları həcmində maliyə vəsaiti ayrılmışdır. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda yol boyunca körpülərin, torpaq yatağının, yeraltı keçid və suötürücü boruların tikintisi layihəyə paralel şəkildə

həyata keçirilir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə yekunlaşdırılması proqnozlaşdırılır.

Layihələndiriən biri də Horadiz-Zəngilan-Qubadlı-Laçın yoludur ki, Buna paralel olaraq Horadizin Füzuli və Şuşa ilə dəmir yolu nəqliyyatı ilə birləşdirilməsi planlaşdırılır. Bundan əlavə dəmir yolu layihələrinə Yevlax-Xankəndi qatarının bir hissəsi olan Bərdə-Ağdam reysi (104 km) daxildir. Bərdədən Ağdama kimi olan 45 kilometrlik hissənin tikintisinə start verilib və birinci mərhələdə 2,94 milyon dollar vəsait yönəldilib. Ölkədə icra olunan layihələrdən biridə Toğanalı-Kəlbəcər avtomobil yolu layihəsidir Uzunluğu190 kmə yaxın olan magistralın Murovdağ silsiləsindən keçib, İstisu kurort ərazisinə qədər uzanacağı planlaşdırılır. yolun hündürlüyünün bəzi ərazilərdə 3500 metrə çatacağı qeyd edilir. Bu səbəbdən soyuq aylarda üzləşə biləcəyimiz mümkün çətinliklərin qarşısını almaq məqsədilə 10-12 km uzunluğunda bir neçə tunel tikintisi layihələndirilir. Magistral qoşağının Laçına qədər uzanacağı nəzərdə tutulub. Bütün bu nəqliyyat layihələrinin məqsədi şimal və cənub istiqamətindən Kəlbəcər və Laçın rayonlarına getmək üçün infrastruktur yaratmaqdır.

Azad edilən torpaqlarda nəqliyyatın avtomobil və dəmir yolu növlərində əlavə hava nəqliyyat layihələri də reallaşdırılıb. İlkin bu cür layihə ötən ilin yanvarın 14-də təməlqoyma mərasimi olan Füzuli Beynəlxalq Hava Limanıdır. Ötən ilin 26 oktyabrında istifadəyə verilən hava limanının uçuş-enmə zolağının uzunluğu 2800 metrdir.

Qlobal ekoloji problemlərin gündəmi zəbt etdiyi zamanda Azərbaycanın işğaldan qurtarılan torpaqlarda əsas missiyalarından biri də "Yaşıl enerji zonası" yaradaraq, enerji təhlükəsizliyinə nail olmaqdır. Beləliklə, azad edilən ərazilər təkcə ölkənin iqtisadi və sosial həyatına inteqrasiya olunmaqla qalmayacaq, regionun ekoloji təmiz zonalarından birinə çevriləcək. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda günəş enerjisi potensialı 4000 MVt dan çox, külək enerjisi potensialı isə 500MVt-a qədərdir. Azərbaycan Energetika Nazirliyi beynəlxalq maliyə institutları ilə yaşıl enerji

zonalarının yaradılması istiqamətində görüşlər keçirib və bu sahədə işlərə artıq başlanılıb.

Ətraf mühitin qorunmasına xidmət edən yaşıl enerji layihələri ilə yanaşı, layihələrə də artıq başlanılıb. İdareetmə orqanlarının elektrik enerjisi ilə təminatı üçün "Qarabağda Azərişıq" layihəsi reallaşıdırılır. İşğal dövründə erməni separatçıları tərəfindən məhv edilən SES-lərin bərpası ilə bağlı işlər davam edir. Laçın rayonunda 8 meqavat potensialında olan Güləbird su elektrik stansiyasının artıq istifadəsinə başlanılıb. Cəbrayılda Xudafərin və Qız qalası, Suqovuşanda iki SES, Füzulidə Şükürbəyli SES-lərində yenidənqurma və bərpa işləri aparılır. SOCAR bu ərazidə 416 kilometr uzunluğunda olan qaz xəttlərinin tikintisini planlaşdırır.

Şəhərsalmanın Qarabağ modelində innovativ yanaşmaların tətbiqi gözlənilir. Yaradılan "ağıllı şəhər" və "ağıllı kənd" proqramları ilə insan mərkəzli şəhər konsepsiyasının ilkin addımları atılır. İlk "Smart city" konsepsiyası , beş komponent yəni mənzil, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerjisi üzərində cəmlənərək Zəngilan rayonunun Ağalı kəndində yaradıldı. Kənddə 200 evin tikintisi başa çatıb və enerji təminatı yalnız alternativ enerji mənbələri ilə təmin ediləcək (Bağırov O.,2020).

Bütün bu layihələr yəni istər nəqliyyat əlaqələrinin bərpası, istərsə də hava nəqliyyatı pyoyekti ticarət əlaqələrinə stimul verərək turizm potensialından istifadə üçün əlverişli zəmin yaradacaq. Nəticə etibarı ilə ölkə təbii ehtiyatlardan səmərəli istifadə ilə azad edilmiş ərazilərin ÜDM-də ki payını işğaldan əvvəlki səviyyəyə çatdıra biləcək. Bundan başqa, tariximizin və mədəniyyətinin beşiyi sayılan Şuşada Azərbaycan hökuməti tərəfindən "Prezidentin Xüsusi Nümayəndələr İnstitutu" yaradılmışdır. Digər yeni yaradılan qurum - Qarabağın Dirçəliş Fondudur ki, əsas missiyası bərpa və yenidənqurma işlərinə maliyə yardımı göstərməkdir. Reabilitasiya müddətində xarici özəl şirkətlərlə yanaşı yerli özəl şirkətlərə də yer verilməli, təşviq edilməlidir (https://www.dailysabah.com/opinion/op-ed/bakus-smart-karabakh-plan-paints-a-bright-future, 2021).

Düşmən işğalından azad olunmuş bölgələrin iqtisadi canlanmasında iştirakı olan özəl qurumlara vergi və gömrük güzəştlərinin verilməsi. Azərbaycan üçün belə bir iqtisadi tənzimləmə aləti yetəri qədər ənənəvidir. Özəl qurumlara xüsusilə də kənd təsərrüfatında çalışanlara, vergi güzəştlərinin, qiymət güzəştlərinin, vergi tətillərinin, dotasiyaların verilməsi istiqamətində kifayət qədər böyük təcrübə qazanılmışdır. Münaqişədən sonrakı reabilitasiya durumlarında bu kimi güzəştləri kənd təsərrüfatı ilə yanaşı, iqtisadiyyatın digər sektorları ilə məşğul olan qurumlara da tətbiq etmək lazımdır. Düşünülür ki, münaqişə sonrası reabilitasiya prosesində tətbiq olunan bütün başqa güzəştlər kimi, fiskal güzəştlər də müvəqqəti xarakterli olacaqdır və bu, dövlət tərəfindən yenidənqurma işlərinin başlarında rəsmən elan olunacaqdır. Əsas məsələ budur ki, Azərbaycan bazar iqtisadiyyatının "sağçı" modelinin istifadəçisidir və qurumlar və həmçinin, özəl şirkətlər üçün qeyri-tarazlıq şəraitinə səbəb olan hər növ güzəştlərdən və süni üstünlüklərdən yavaş-yavaş imtina etməyə səy göstərir. Qlobal xarakterli maliyyə institutları da həmçinin məhz bu tərz iqtisadi sistem quruculuğu ilə həmfikirdir. Bununla yanaşı, Azərbaycanını Dünya Ticarət Təşkilatına daxilolma məsələsi də qurumların seçmə üsulla dəstəklənməsinin hər bir növünü heçə endirməyi tələb edir. Ancaq bunu da diqqətdə saxlamaq lazımdır ki, keçmiş münaqişə bölgələrinin iqtisadi cəhətdən dirçəlməsi hər bir ölkədə və hər zaman normal şəraitdə yox, xüsusi şərtlər daxilində gedir. Bu səbəbdən də müvəqqətiliyi qəbul olunmaqla fiskal güzəştlərdən bu məsələdə, təbii ki, istifadə oluna bilər.

• Düşmən işğalından azad olunmuş bölgələrin iqtisadi canlanmasında iştirakı olan özəl qurumlara güzəştli kreditlərin ayrılması. Ölkəmiz bu istiqamətdə də yetərli təcrübəyə malikdir, institusional məsələləri isə artıq həll olunmuş hesab etmək mümkündür. Həm ölkənin paytaxtında, həm də digər şəhər və əyalətlərində Sahibkarlığa Kömək Milli Fondunun mövcudluğu dövründə həyata keçirilmiş yüzlərlə biznes-kommersiya layihəsini maliyyələşdirmişdir. Bundan əlavə, Dövlət investisiya şirkətinin imkanlarından da geniş şəkildə istifadə olunacaqdır. Belə güzəştlərə misal olaraq, yanacaq məhsullarının fermerlərə bazar dəyərindən əhəmiyyətli dərəcədə aşağı

güzəştli qiymətlərlə satışını göstərmək olar. Güzəştli kreditləşdirmədə, dövlət müəssisələri ilə yanaşı, kommersiya banklarının da əhəmiyyətli rolu ola bilər. Bu səbəblə Mərkəzi Bankda xüsusi bir məqsədli kredit xətti açılması təklif edilir. Bu xəttlə kommersiya banklarına təklif ediləcək kreditlərin mənbəyi kimi, Mərkəzi Bankın mərkəzləşdirilmiş kredit vəsaitləri ilə bərabər, dövlətin qlobal maliyyə institutlarından və xarici investorlardan cəlb etdiyi maliyyə resurslarından da istifadə olunması nəzərdə tutulur. Bu xətt üzrə kommersiya banklarının alacağı maliyyə ehtiyatlarının qiyməti Mərkəzi Bankın rəsmi uçot faizindən aşağı olacaqdır. Bununla bərabər, bankların həmin ehtiyatlardan verdiyi kreditlərin qiyməti də bu fərq qədər aşağı olacaqdır. Həmçinin, bu şərt əvvəldən razılaşdırılacaq, Mərkəzi Bankdan güzəştli kredit ehtiyatları əldə etmək barədə müqavilədə əks etdiriləcəkdir. Bununla yanaşı, dövlət, kommersiya banklarındakı səhm paylarının əvəzində almalı olduğu dividentlərin tamamından və ya müəyyən bir hissəsindən imtina edərək, o banklara tapşıra bilər ki, düşmən işğalından azad olunmuş bölgələrin iqtisadi baxımdan canlanmasında iştirakı olan qurumlara güzəştli kreditlər versinlər, onun divident hissəsini isə normal və güzəştli kreditlərin qiymət fərqini qarşılamaq üçün istifadə etsinlər. Mikro-maliyyələşdirmə istiqamətində ixtisaslaşmış banklar və bank olmayan kredit təşkilatlarının kiçik biznesi təmsil edən yerli sahibkarlara kiçik belə olsa, güzəştli kreditlər verməsi bir sıra durumlarda xüsusilə təsirli ola bilər. Güzəştlər verilərkən, keçmiş müzakirə bölgələrində yenidən məskunlaşmış sakinlərə məxsus olan özəl qurumlar üstün tutulmalıdır. Bu isə sadəcə sosial baxımdan yox, eyni zamanda iqtisadi nöqteyi-nəzərdən də önəmlidir. Düşmən işğalından azad olunmuş bölgələrə geri qayıdıb orada məskunlaşmış sakinlər kommersiya uğuru əldə etmək üçün daha maraqlı olacaqlar, yerli istehlakçının keyfiyyətlərini daha yaxşı biləcəklər və həmçinin, biznesə birbaşa rəhbərlik istiqamətində daha böyük potensiala sahib olacaqlar. Bu səbəbədən də həm bankların, həmçinin də ayrı-ayrı kommersiya layihələrinin reallaşdırılmasında güzəştli şərtlər təklif edən müxtəlif qurumların özləri də sırf yerli sahibkarlarla partnyorluq etmək üçün daha maraqlı olacaqlar. Keçmiş müzakirə bölgələrində maliyyə

xidmətlərinin təşkil edilməsi də özlüyündə bir problemdir. Lakin bu məsələ dövlət və özəl kommersiya banklarının bərabər iştirakı ilə həll olunacaqdır. Bank-maliyyə kompleksinin yenidən qurulması zəmnində, digər iqtisadi alətlərlə bərabər, sakinlərə güzəştli istehlak kreditlərinin təklif edilməsi, kənd təsərrüfatının canlanmasını hədəfləyən məqsədli kreditlərdən, aqrar-sənaye istehsalında və xidmət sektorunda fəaliyyət göstərən kiçik və orta müəssisələrin xüsusi bir xətt üzrə kreditləşdirilməsindən də istifadə ediləcəyi nəzərdə tutulur.

Bir müddət əvvəl kənd təsərrüfatı naziri İnam Kərimovun verdiyi informasiyaya görə, bu qurum da ərazidə aqrar sektorun canlanması ilə əlaqədar planlar işləyib hazırlayır. Həmin bölgədə iqtisadiyyatın canlanması istiqamətində ayrı-ayrı dövlət qurumları bizneslə əlaqələr da qururlar. Məsələn, İqtisadiyyat Nazirliyi nəzdində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi düşmən işğalından azad edilmiş bölgələrdə biznes qurmaq istəyən sahibkarlara müraciət edib.

Agentlikdən verilən informasiyaya görə azad olunmuş bölgələrdə biznes qurmaq istəyən sahibkarlar öz layihələrini agentliyə təqdim edə bilərlər. KOBİA-a müraciət etmiş hər bir sahibkara işğaldan azad edilmiş yerlərin iqtisadi və investisiya imkanları barədə ətraflı məlumat, məsləhət, əlaqələndirmə və başqa yardım və xidmətlər göstəriləcək. Həmçinin Nazirliyin nümayəndəsi məlumatlandırıb ki, işğaldan azad olunmuş bölgələrdə 14347 hr ərazidə şumlama işləri gedir. Bu yerlərdə xüsusilə taxıl əkini planlaşdırılır. Kəlbəcər rayonu üzrə 53 arıçıya aid 2937 arı ailəsi və Laçın yaylaqlarına qaldırılmış 16 arıçı sahibkara aid 531 arı ailəsi də qışlaqlara yerləşdirilmişdir. Bununla yanaşı, cari ildə Füzulinin 288.8 hektar ərazisində şəkər çuğunduru əkilmişdir ki, bu ərazinin 78,8 hektarı işğaldan azad olunmuş bölgələrin payına düşür. Rayonun işğaldan azad olunmuş Seyidmahmudlu kəndində minalardan təmizlənmiş bu yerlərdə şəkər çuğunduru ilk dəfə idi ki, becərilirdi və yüksək məhsuldarlığa nail olunmuşdur. Şəkərlilik faizi 15-16% göstərici ilə hər hektara 55-60 ton məhsul yığılmış və indiyə qədər təqribən 1800 ton məhsul tədarük edilmişdir.

Dövlət Turizm Agentliyinin rəsmi nümayəndəsi bildirmişdir ki, işğaldan azad olunmuş bölgələrdə mehmanxana təsərrüfatı və turizm fəaliyyətlərinin təşkili istiqamətində 11 investisiya layihəsinin ilkin qiymətləndirilməsi aparılmışdır.

Hadrut qəsəbəsinin sosial-iqtisadi inkişafının turizm baxımından dəyərləndirilməsi yönündə hesabat hazırlanmış, turizm imkanlarının qiymətləndirilməsi ilə bağlı Kəlbəcər rayonuna səfər təşkil olunmuş və səfər zamanı Kəlbəcərin turizm imkanları ilə əlaqədar ilkin qiymətləndirmə həyata keçirilmişdir.

Bu istiqamətdə xüsusən, Ermənistan və Azərbaycan arasında bu yaxınlarda imzalanmış sazişə görə, Avropa İpək Yolu, Türkiyənin Orta Dəhliz layihəsi, Çinin “Bir kəmər və yol” təşəbbüsü və Azərbaycanın nəqliyyat və logistika potensialı Naxçıvan dəhlizində bir-birini tamamlamağa xidmət edəcəkdir.

Bu dəhliz ölkəmizin dəniz çıxışına sahib olmayan anklavı Naxçıvanın təcridinə yekun qoyacaq və bununla yanaşı, Avrasiya bağlantılarını artıracaq.

Ş.Nəcəfov bildirmişdir ki, Qarabağda heç olmasa bir neçə dünyaca tanınmış şirkətlərin filiallarını yaratmaga çalışmalıyıq: “Qlobal səviyyədə tanınmış markaları əraziyə gəlməyə həvəsləndirməliyik. Bununla yanaşı, beynəlxalq ralli yarışları ilə əlaqədar yollar və atçılıq üçün qlobal səviyyəli cıdır meydanları qurulmalıdır. Bununla bağlı olaraq, dünyaca məşhur Qarabağ atlarının yetişdirilməsi üçün məşhur şirkətlərin iştirakçılığı ilə müəssisə qurub, həmin atların təbliğini dəstəkləmək lazımdır.

İşğaldan azad edilmiş bölgələrimizin turizm imkanlarının zəngin olması şübhəsizdir. Bu səbəbdən də həmin ərazilərdə turizm, hotelçilik, yeni salınmış dağ kəndlərində ailə turizminin, ekoturizm fermalarının inkişafına mühüm əhəmiyyət vermək lazımdır. Bunu diqqətdə saxlamaqda fayda vardır ki, turizmin inkişaf etməsi qlobal səviyyədə bölgənin sırf Azərbaycana aid olması ilə bağlı rəyi möhkəmləndirməyin mühüm üsuludur. Ərazi həmçinin, kənd təsərrüfatının inkişafı aspektindən də zəngin imkanlara sahibdir. Bu baxımdan əkinçilik, arıçılıq, xalçaçılıq kimi sektorlar ön plana çıxarılmalıdır. İranla sərhəd olan ərazilərdə azad iqtisadi zona, hər bir rayonda isə aqro və sənaye parklarının salınması düzgün olardı".

Bütün olaraq baxıldıqda, belə nəticəyə varmaq mümkündür ki, işğaldan azad olunmuş bölgələrdə müasir texnika və texnologiya ilə təchiz olunan, İKT-dən, milli xammal, enerji və digər ehtiyatlardan səmərəli istifadə potensialı olan aşağıdakı fəaliyyət sahələrində mikro, fərdi, kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin yaradılması bölgənin dinamik sosial-iqtisadi inkişafına, özünüməşğulluğun və həmçinin, aktiv məşğulluğun yüksək səviyyədə təmin olunmasına imkan yaratmış olacaqdır:

- bölgələrdə onların özünəməxsus keyfiyyətlərinə görə aqroparkların və müştərək müəssisələr (dərman bitkilərinin tədarükü və emalı, yem tədarükü, kənd təsərrüfatı məhsullarının, iri və xırda buynuzlu heyvan dərilərinin toplanması və emalı, süd və süd məmulatları istehsalı, quru meyvə, arıçılıq, meyvə şirələri və kompot hazırlayan müəssisə və s.) şəbəkəsinin təşkili. Qlobal təcrübəyə görə Qarabağın var olan 329 inzibati ərazi dairəsində kəndlərin sayı 3 və daha artıq, əhali sayı isə 200-1000 nəfər olan 161 ixtisaslaşmış və ya qarışıq tipli aqropark yaradılması mümkündür;
- bölgədə saysız faydalı ehtiyat yataqlarının varlığı Zəngilan və Kəlbəcər bölgələrində müştərək dağ-mədən və əlvan metal istehsalı ilə məşğul olan müəssisələrin yaradılmasına səbəb ola bilər;
- bölgədə 46 qəsəbə olması və həmçinin, şəhərlərin real sənaye imkanları, bu ərazidə 28 xidmət və sənaye məhəlləsinin salınması potensialını reallaşdıra bilər;
- Şuşada AMEA Yüksək Texnologiyalar Parkının filialını və Akademiyanın Şuşa Regional Elmi Mərkəzini yaratmaqla var olan sənaye, elm və təhsil müəssisələrinin iştirakı ilə modern texnoparkın əsasının qoyulması şəhərin iqtisadi imkanlarından əlverişli istifadə edilməsinə gətirib çıxara bilər;
- Cəbrayıl, Qubadlı və Ağdam ərazilərində “Azərxalça” ASC-nin filiallarının salınması, münasib şəraitli bölgələrdə baramaçılığın inkişafı mikro və kiçik sahibkarlığın dinamik inkişafına səbəb ola bilər;

- Şuşa, Kəlbəcər və Laçında geniş miqyasda mineral su rezervlərinin varlığını diqqətə alaraq, bu ərazilərdə suların geniş çeşidinin qablaşdırılması və istehlakı ilə bağlı uyğun sahibkarlıq subyektinin formalaşması da geniş iqtisadi səmərə verə bilər;

- Cəbrayıl və Füzuli ərazilərində sərhəd azad ticarət zonalarının formalaşdırılması bölgənin ixrac potensialını artırmış olar;

- Cəbrayıl, Zəngilan, Şuşa, Qubadlı, Füzuli, bölgələrində tarixi abidələrin olması orada turizmin canlanmasına səbəb ola bilər;

- azad olunmuş hər bir inzibati rayon üçün tərtib olunacaq özünüməşğulluq proqramı ilə bağlı kənd təsərrüfatının ayrı-ayrı sahələrində mikro və fərdi-sahibkarlıq fəaliyyətinin təşkil edilməsi;

- mikro, kiçik və fərdi sahibkarlar tərəfindən qlobal aləmdə məşhur olan Qarabağ atlarının sayının artırılması;

-xırda və iribuynuzlu heyvan dərilərinin işlənməsi və onlardan geyim məhsualları və başqa xalq istehlakı əmtəələri istehsalının təşkil olunması yerli sakinlərin maddi rifah halının yüksəldilməsinə də şərait yarada bilər;

- bölgənin dağlıq kənd və qəsəbələrində mikro, kiçik və fərdi sahibkarlıq fəaliyyəti göstərən yerlərdə və həmçinin də fərdi yaşayış evlərində qonşu Türkiyənin hazırki və uğurlu iş təcrübəsindən istifadə ilə bərpa olunan və alternativ enerji formalarından istifadəyə üstünlük verilməsi faydalı olardı.

- əsası yeni əsası qoyulacaq Milli Konservatoriyanın filialı olmaqla, Şuşada böyük təyinatlı musiqi məktəbləri, yeni qurulacaq Muğam Evi, çalğı alətləri istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri, xalq çalğı alətləri ansamblları və orkestri kimi Musiqi Klasterinin qurulması;

- bölgədəki hər bir musiqi məktəbinin fəaliyyətinin bərpası;

- səmərəli yerlərdə “ASAN” xidmət və “DOST” mərkəzlərinin qurulması;

- bölgənin sosial-iqtisadi inkişaf tələblərinə müvafiq ixtisaslı kadr hazırlığı məqsədilə ölkədə mövcud olan dövlət, özəl ali və orta ixtisas məktəblərinin filiallarının, münasib nəqliyyat-kommunikasiya qovşaqlı mərkəzi regionların birində Qarabağ

Dövlət Universitetinin, eləcə də peşə təhsili ocaqlarının əsasının qoyulması potensialı da gerçəkləşəcəkdir.Əlbəttə buna şübhə yoxdur ki, bütün bunların düzgün plan olmasının sübuta yetirilməsi, öz müsbət nəticələrini verməsi bir az çətin və zaman tələb edən bir proses olduğundan bu yerlərin tam işlək hala gətirilməsi üçün uzun bir yola ehtiyac vardır. Bəzi layihələrin həyata keçirilməsi bir-birilə əlaqəli olmaqla bərabər, digərindən asılıdır. Buna görə də, gerçəkləşdirmədən həmin fikirlərlə əlaqədar dəqiq bir mühakimə yürütmək mümkün deyildir. Nəticə etibarilə bütün bunlar üçün maliyyə qaynaqları təklifi versək, düşmən işğalından azad olunmuş bölgələrdə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı olaraq sığorta təşkilatlarının vəsaitləri, dövlət büdcəsindən və Neft Fondundan bilavasitə ayrılan vəsaitlər, qloabl xarakterli təşkilatların birdəfəlik təmənnasız ianələri, aşağı faizli bank kreditləri, xarici investisiyalar, əhalinin şəxsi pul vəsaitləri və qanunvericiliklə qadağan olunmayan başqa mənbələr istifadə oluna bilər.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Düşmən işğalından azad edilən və beynəlxalq hüquq müstəvisində Azərbaycana məxsus Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunda davamlı inkişafın təmin edilməsi və sözügedən ərazinin regionda sülh və əməkdaşlıq zonasına çevrilməsi əsas missiya hesab olunmalıdır. İstər iqtisadi canlanmaya təşviq mərhələsi kimi, istərsə də sosial həyata dəstək və əhalinin layiqli həyat səviyyəsini təmin etmək baxımından dövlətin ilkin addımlarından biri burada biznes infrastrukturunun yaradımasıdır. Tarixi torpaqların qaytarılması ilə bölgədə sürətlə aparılan yenidənqurma və bərpa işləri zamanı qarşıya qoyulan əsas hədəf, bu ərazilərin iqtisadi dövriyyəyə daxil edilməsi və ölkənin iqtisadi və sosial həyatına inteqrasiyası məsələsidir.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında rebilitasiya prosesi zamanı dünya təcrübəsinin tətbiq edilməsi Azərbaycan üçün üstünlük hesab oluna bilər, Bu zaman əsas məsələ regionun təkcə iqtisadi potensialı yox, həm də tarixi mədəni və sosial amillərinin nəzərə alınmasıdır .

İşğaldan azad edilən ərazilərdə biznes mühitinə xidmət məqsədilə ilk növbədə əsas infrastruktur sistemləri bərpa edilməlidir ki, bölgədə bu yöndə işlər sürətlə davam etdirilir. Burada söhbət həm elektrik su qaz xəttlərinin çəkilməsi ilə yanaşı nəqliyyat və rabitə kimi logistikaya xidmət edən sektorların ən müasir şəkildə təşkilindən gedir. Enerji təminatı sisteminin yenidən qurulması işlərində Azərbaycan aparıcı dünya ölkələrinin birmənalı olaraq qəbul etdiyi yaşıl enerji zonalarının yaradılmasını planlaşdırır. Davamlı inkişafın təməlində dayanan ətraf mühitin təhlükəsizliyinin təminatı məsələsində əsas məqam alternativ enerjidən istifadə edilməsidir ki, ölkəmiz bu sahədə də düçünülmüş addımlar atır. Regionda yaşıl enerji zonalarının yaradıması istiqamətində Energetika Nazirliyi maliyə təşkilatları ilə əməkdaşlığa başlayıb.

Diqqət mərkəzində olan daha bir mövzu isə bölgələrdə kiçik və orta biznesə dövlət tərəfindən göstərilən qayğıdır. Burada iqtisadi rayonların yerli əhlisi və ya digər könüllü şəxslərin sahibkarlıq fəaliyyətinin stimullaşdırılması yönündə investisiya imkanları

yaralıdaraq, məsləhət, məlumat və s. bu kimi xarakteri xidmətlərin göstərilməsi ilə bağlı İqtisadiyyat Nazirliyinin nəzdində yaradılan KOBİA müəyyən işlərə başlamışdır.

Daha bir məsələ isə şəhərsalma prosesi həyata keçirilərkən sahibkarlığın inkişafına paralel olaraq layihələndirilməsidir. Ölkədə ilk olara azad edilən torpaqlarda yaradılan “smart city” konsepsiyasının əsas beş komponentində biri də ağıllı kənd təsərrüfatıdır ki, burada istehsal və ticarətin səmərəli təşkili nəzərə alınacaqdır.

İqtisadi rayonların təbii resurslarının öyrənilməsi burada iqtisadi fəaliyyət istiqamətlərinin müqayisəli üstünlük şəraitində layihələndirilməsinə yardımşı olur. Biznes mühitinin yaradılması və sahibkarlığın stimullaşdırılması üçün təbii resurslarla yanaşı kadr ehtiyyatlarının da optimal təşkili və səmərəli istifadəsi üçün ilk növbədə regionun xüsusiyyətləri araşdırılmalıdır. Bu sahədə Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının SWOT qiymətləndirmə analizinin aparılması üçün ölkədəki institut və araşdırma mərkəzi beynəlxalq səviyyədə mütəxəssis kimi tanınan agentliklərlə əməkdaşlıq edir.

İqtisadi rayonların təbii resurslarının öyrənilməsi burada iqtisadi fəaliyyət istiqamətlərinin müqayisəli üstünlük şəraitində layihələndirilməsinə yardımçı olur. Biznes mühitinin yaradılması və sahibkarlığın stimullaşdırılması üçün təbii resurslarla yanaşı kadr ehtiyyatlarının da optimal təşkili və səmərəli istifadəsi üçün ilk növbədə regionun xüsusiyyətləri araşdırılmalıdır. Bu sahədə Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının ilkin analizinin aparılması üçün ölkədəki institut və araşdırma mərkəzi beynəlxalq səviyyədə mütəxəssis kimi tanınan agentliklərlə əməkdaşlıq edir.

Yekun olaraq, biznes mühitinin işğaldan azad olunan torpaqlarda stimullaşdırılması üçün aşağıdakıları təklif edirik:

1. İşğaldan azad edilmiş torpaqlarda potensial biznes sahələrinin təhlili zamanı burada həm kənd təsərrüfatı həm aqrar sahəyə xidmət edən sənaye həmçinin də ağır sənayenin yüksək perspektivə malik olduğunu görə bilərik. Dövlətin bölgəyə xarici şirkətlərinin maraqlarının artırılması və onların təcrübələrinin tətbiq edilməsi yönündə

həyata keçirdiyi fəaliyyətlər sırasına vergi və gömrük tariflərində tətbiq ediləcək güzəşlərin daxil edilməsi.

2. Qaytarılan torpaqlarda sahibkarlıq mühitinin yaradılması üçün idarəetmədə şəffaflığın artırılması və idarəetmə qərarlarının çevikliyi arasında optimal mütənasiblik yaradan sistem qurmaq.

3. Modern biznes infrastrukturunun qurulmasından əvvəl insan mərkəzli şəhər prinsiplərinə əsaslanan smart city layihəsində insanların yeni mühitə inteqrasiyasının təşkili.

Son olaraq bir faktor da vurğulamalıdır ki, bu torpaqlarda iqtisadi həyatın dirçəlməsi təkcə Qarabağ və Şərgi Zəngəzur regionunun yox, ümumilikdə makro səviyyədə ölkənin iqtisadi inkişafına və regiondakı iqtisadi həyata təsir göstər biləcək potensiala malikdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 12 noyabr 1995;

2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / – Bakı şəhəri, 2 fevral 2021-ci il

3. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / – Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı / – Bakı şəhəri, 29 yanvar 2021-ci il

4. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair StratejiYol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı Bakı, 2016.-59 s

5. Ağıllı şəhər (Smart City) və Ağıllı kənd (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. / – Bakı şəhəri, 19 aprel 2021-ci il.

6. Əlisultanov R., “Qarabağın inkişafının ölkə iqtisadiyyatına təsiri”, Unec ekspert , 2021, s. 46.;

7. Hacıyev F., “İşğaldan azad olunmuş ərazilərdə investisiya qoyuluşlarının təhlili və qiymətləndirilməsi”, Unec ekspert , 2021, s. 24.;

8. İbrahimov.İ.H., (2016) “Aqrar sahənin iqtisadiyyatı”, Bakı , 655s

9. Kaşiyeva F., “İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun bərpası”, Unec ekspert , 2021, s. 38.;

10. Müzəffərli N., İsmayılov E., (2010), “Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar” , Bakı, “Qafqaz” Nəşriyyatı, 270 Səhifə ;

11. Rzayeva Ü., “Qarabağda kiçik və orta müəssisələrin innovative fəaliyyətinin stimullaşdırılması və perspektivləri”, Unec ekspert , 2021, s. 36.;

12. Sadıqov E., “Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri”, Unec ekspert , 2021, s. 14.;

13. Səfərli E., “Postmüharibə dövründə Qarabağa qoyulacaq birbaşa investisiyaların sektorlar üzrə təhlili”, Unec ekspert , 2021, s. 16.;

**İngilis dilində**

1. Andrews, K.R., 1987. The Concept of Corporate Strategy. 3rd ed. Irwin: Illinois. Ansoff, I.H., 2007

2. Baltzan, P. and Phillips, A., 2008. Business-driven Information Systems. Mc Graw-Hill: Maidenhead.

3. Filimonova N.M. Economics and organization of small and medium business: textbook. allowance / N.M. Filimonova, N.V. Morgunova, E.S. Lovkova. - 2nd ed., Add. - Moscow: INFRA-M, 2015. - 220, [1] p. : ill., tab. - (Higher education. Bachelor's degree) (Textbook). - Bibliography: p. 208-211 and interlinear. note.;

4. Hasanova Shabnam “International Involvement in Infrastructure Projects in Azerbaijan’s Newly Regained Territories”, Eurasia Daily Monitor Volume, 2021,

5. Intrapreneurship: a comparative structural equation modeling study. Industrial Management & Data Systems: Bingley;

**İnternet resursları**

1. https://president.az/articles/50474

2. http://diaspor.info/siyaset/14721-musteqil-iqtisadiyyatimiza-qalan-miras-ve-yeni-realliqlar.html

3. https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc

4. http://www.shirvan-ih.gov.az/news/1945.html

5. https://vergiler.az/news/economy/10954.html

6. https://apa.az/az/xeber/iqtisadi/isgaldan-azad-olunmus-erazilerde-berpa-quruculuq-isleri-suretle-davam-etdirilir-icmal-653863

7. https://news.milli.az/economy/895026.html

8. http://interfax.az/view/817974/az

9. http://economics.com.az/index.php/tedbirler/yenilikl-r/item/2030-azaerbaydzan-n-ishzhhaldan-azad-edilaen-aerazilaerindae-sahibkarl-zhh-n-inkishaf-istizhamaetlaeri.html

10. https://m.cia.az/news-view/140965-Azad-olunan-erazilerde-biznese-dovlet-desteyi

11. https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/

12. https://www.azernews.az/business/180391.html

13. https://azertag.az/en/xeber/Azerbaijan_aims_to_transform_liberated_territories_to_high_tech_area_Eurasia_Review-1742727

14. https://report.az/en/analytics/karabakh-driver-azerbaijan-s-economy-to-grow-thanks-to-projects-in-liberated-territories/

15. https://www.dailysabah.com/opinion/op-ed/bakus-smart-karabakh-plan-paints-a-bright-future

16. https://www.arabnews.com/node/1772911/azerbaijan-restoring-its-territories-liberated-armenian-occupation%C2%A0

17. https://bakuresearchinstitute.org/en/building-smart-cities-and-villages-in-azerbaijan-challenges-and-opportunities/

18. https://azertag.az/xeber/Isgaldan_azad_edilmis_erazilerin_iqtisadi_potensialinin_qiymetlendirilmesi_istiqametinde_muvafiq_isler_aparilir-1891585

19. https://azsiyaset.com/musahibe/1339-Ishgaldan-azad-edilmish-torpaqlar-Azerbaycanin-gucune-guc-qatacaq.html

20. https://konkret.az/isgaldan-azad-edilmis-eraziler-uzre-2021-2025-ci-iller-ucun-dovlet-proqrami-hazirlanib/

21. https://musavat.com/news/ekspertler-biznesin-inkisafi-fondu-haqda-danisdilar_836323.html

22. https://azerforum.com/az/azad-edilmish-erazilere-ozel-sektor-ve-xarici-shirketlerin-maragi-artir
23. http://interfax.az/view/829155/az
24. https://stm.az/az/news/824/azerbaycanda-biznes-muhiti-ve-imkanlar

# ƏLAVƏLƏR

## Anket sorğunun sualları

1. Yaşınız ? :
   - 18-25
   - 26-35
   - 36-45
   - 45+

2. İşlədiyiniz fəaliyyət sahəsi ?
   - Maliyyə
   - Xidmət
   - İctimai-iaşə
   - Ticarət
   - Digər

3. Sizcə Qarabağda daha çox hansı sektora yer verilməlidir? :
   - Dövlət
   - Özəl
   - Hər ikisi

4. Sizcə işğaldan azad olunan ərazilərdə hansı istehsal sahələri inkişaf etdirilməlidir?

- Ənənəvi istehsal(aqrar, sanəye)
- Xidmət sahələri(turizm,maliyyə,marketinq)

5. Sizcə işğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun qurulması üçün hansı şirkətlər cəlb olunmalıdır ? :
   - Yerli
   - Xarici
   - Hər ikisi

6. Sizcə Qarabağda biznes mühitinin qurulmasında hansı ölkələrin şirkətlərinə yer verilməlidir ?
   - Türkiyə
   - İngiltərə
   - İsrail
   - ABŞ
   - Fransa
   - İtaliya

7. İnvestor kimi Qarabağda hansı sahəyə yatırım etmək istərdiniz? :
   - Texnologiya
   - Turizm
   - Bankçılıq
   - Mədən sənayesi
   - Aqrar sənaye
   - Digər

# Cədvəllərin siyahısı

**Cədvəl 1:** Rayonlar üzrə sektorların bölgüsü .......... 16
**Cədvəl 2:** 1980-ci illər üzrə əkin sahələrinin strukturu, ha .......... 29
**Cədvəl 3:** Perspektivdə əkin sahələrinin proqnozlaşdırılan strukturu, ha .......... 29
**Cədvəl 4:** Heyvanların baş sayı, min baş .......... 31

# Qrafiklərin siyahısı

**Qrafik 1:**Respondentlərin hansı yaş aralığının nəticəsi .......... 52
**Qrafik 2:** Respondentlərin işlədiyi fəaliyyət sahəsinin nəticələri .......... 53
**Qrafik 3:** Respondentlərin "Sizcə Qarabağda daha çox hansı sektora yer verilməlidir?" sualının nəticələri .......... 53
**Qrafik 4:** Respondentlərin "Sizcə işğaldan azad olunan ərazilərdə hansı istehsal sahələri inkişaf etdirilməlidir?" sualına verdiyi cavabın nəticələri .......... 54
**Qrafik 5:** Respondentlərin Sizcə işğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun qurulması üçün hansı şirkətlər cəlb olunmalıdır?" sualına verdiyi cavabın nəticələri .......... 55
**Qrafik 6:** Respondentlərin Sizcə işğaldan azad olunmuş ərazilərdə biznes infrastrukturunun qurulması üçün hansı şirkətlər cəlb olunmalıdır?" sualına verdiyi cavabın nəticələri .......... 56
**Qrafik 7:** Respondentlərin "İnvestor kimi Qarabağda hansı sahəyə yatırım etmək istərdiniz?" sualına verdiyi cavabın nəticələri .......... 56